RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 165 (8758) ÇƏRŞƏNBƏ AXŞAMI, 10 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarabağ zəfəri iqtisadi yüksəlişə zəmin yaradıb

## Prezident İlham Əliyevin postmüharibə dövrü üçün müəyyənləşdirdiyi layihələr uğurla reallaşmaqdadır

"Postmüharibə dövrü çox böyük çağırışlarla doludur və biz bunu məharətlə keçirik. Deyə bilərəm ki, postmüharibə dövrünün gündəliyini böyük dərəcədə biz tərtib edirik. Əlbəttə, qonşu ölkələrlə daim təmasda olmaq şərti ilə və onların narahatlığını nəzərə almaq şərti ilə".

Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqları dəyərləndirən Prezident İlham Əliyevin postmüharibə dövrü üçün müəyyənləşdirdiyi hədəflər bu gün uğurla reallaşmaqdadır.

### Yüksələn iqtisadi imkanlar

Son 18 ildə yaranan potensial Azərbaycana Cənubi Qafqazın və ətraf regionun iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Azərbaycan regional iqtisadiyyatın lokomotivi olaraq dünyada enerji təhlükəsizliyi ilə bağlı etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın regionda iqtisadi rolunu daha da yüksəldib, ölkəyə böyük uğurlar qazandırıb.

Düzdür, qlobal pandemiya dövründə iqtisadiyyatımız zərər görüb. Amma bu böhran ölkəmizin ümumi sosial-iqtisadi inkişaf tempinə, hətta regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına belə təsir göstərə bilməyib. Ölkədə heç bir sosial layihə təxirə salınmayıb.

Təkcə son 6 ayın statistik göstəricilərinə nəzər yetirsək görərik ki, artıq bəzi sahələrdə yüksəliş də var. Ölkə iqtisadiyyatı 2 faiz, qeyri-neft sektoru 5 faiz, qeyri-neft sənayesi 16,6 faiz, kənd təsərrüfatı 5,6 faiz artıb. Valyuta ehtiyatlarımız 1 milyard dollar artaraq 52 milyarda yüksəlib. Hazıda valyuta ehtiyatlarımız xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu nailiyyətlər, əlbəttə ki, İlham Əliyevin uğurlu siyasəti hesabına əldə edilib.

Bu gün isə qalib dövlət kimi Azərbaycanın qarşısında çox böyük imkanlar açılıb. Bunu nəzərə alan dövlət başçısı növbəti illərdə hərtərəfli tərəqqi üçün yeni milli prioritetlər müəyyənləşdirib. Bütün dövrlərdə baş verə biləcək neqativlərə qarşı əvvəlcədən tədbirlər görən, mühüm qərarlar qəbul edən Prezident İlham Əliyev yeni dövrdə Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, növbəti onillikdə sosial-iqtisadi inkişafının yüksəlişinin təmini üçün yol xəritəsi hazırlayıb.

Ardı 5-ci səh.

# Prezidentin tapşırığına uyğun olaraq "Abşeron" yarımstansiyası əsaslı şəkildə yenidən qurulub



Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, ötən əsrin 70-ci illərinin əvvəlindən başlayaraq Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə elektroenergetika sahəsi sürətlə inkişaf edib. Məhz həmin illərdə Ümummilli Liderin təşəbbüsü və birbaşa rəhbərliyi ilə Cənubi Qafqazda ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası inşa edilib, Bakı şəhəri və Abşeron yarımadasının sürətlə artan tələbatını qarşılamaq üçün bu stansiyada istehsal olunan elektrik enerjisinin Abşeron yarımadasına ötürülməsi məqsədilə ölkənin ən böyük yarımstansiyası olan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasının tikilməsinə başlanılıb.

"Abşeron" yarımstansiyasında 40 ilə yaxın müddətdə istismarda olan avadanlıqlar köhnəldiyindən, yeni texnologiyalara cavab vermədiyindən və bütün bunlarla yanaşı, tələbat dəfələrlə artdığından istismarda ciddi problemlər yaranırdı. Məhz buna görə, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkənin ən böyük yarımstansiyası olan "Abşeron" yarımstansiyası əsaslı şəkildə yenidən qurulub.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına məlumat verdi ki, bu yarımstansiya bütövlükdə Bakının və Abşeron yarımadasının əksər hissəsini elektrik enerjisi ilə təchiz edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasət nəticəsində sosial məsələlərin həlli, o cümlədən əhalinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təminatı baxımından olduqca mühüm layihələr həyata keçirilib.

Ardı 2-ci səh.

## Əməkdaşlıq və ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edilib



Avqustun 9-da Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı Azərbaycan-Bolqarıstan münasibətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq və ikitərəfli əlaqələrin inkişaf perspektivləri müzakirə edilib. Ölkələrimiz arasında tərəfdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Söhbət əsnasında Azərbaycan təbii qazının Bolqarıstana ixracı və Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun tikintisi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Respublikası Bolqarıstana təkcə təbii qaz deyil, elektrik enerjisinin də ixracına başlayıb və bu da energetika sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Prezident Rumen Radev Azərbaycanda yaradılmış sosial innovasiya mərkəzlərinin əhəmiyyətini vurğulayaraq bu sahədə ölkəmizin təcrübəsinə maraq ifadə edib.

Bolqarıstanın dövlət başçısı Azərbaycan Prezidentini ölkəsinə səfərə dəvət edib. Prezident İlham Əliyev dəvətə görə minnətdarlıq ifadə edərək, bu səfərin münasib vaxtda həyata keçiriləcəyini bildirib.

*Prezidentin Mətbuat Xidməti*

# Qardaşlığın təcəssümü

Azərbaycan-Türkiyə münasibətləri illərin sınağından keçib. Hər zaman ağır günlərində Türkiyə ilə Azərbaycan bir-birilərinin yanında olublar. Bunu son hadisələr bir daha təsdiqlədi. 44 günlük Vətən müharibəsində Türkiyə Azərbaycana hərtərəfli qardaşlıq həmrəyliyi nümayiş etdirdi. Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda, informasiya müharibəsində qardaş ölkənin mətbuatının rolunu unutmamışıq.

Türkiyədə baş verən meşə yanğınları ilə bağlı yaşananlar ilk günlərdən Azərbaycan xalqını da ciddi narahat etdi. Prezident İlham Əliyev qardaş ölkənin rəhbərinə yanğınlar zamanı həyatını itirən vətəndaşlara görə başsağlığı verərək Azərbaycan hökumətinin və xalqının hər zaman olduğu kimi, yenə də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu söylədi.

Birinci vitse-prezident Mehriban Əliyeva da Türkiyəyə dəstək olaraq sosial şəbəkədəki hesabında paylaşım edərək yazdı: "Türkiyə regionlarında baş vermiş dəhşətli yanğınların nəticələri barədə xəbərləri dərin kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını arzulayıram. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!"

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələri hazırda qardaş ölkədə yanğınlarla mübarizə aparır.

Ardı 5-ci səh.

# Aqrar innovasiyalar məhsuldarlığı artırmağa xidmət edir

### Ölkəmizdə bu cür innovasiyalar ardıcıllıqla tətbiq olunur

Dünyada kataklizmlər və təbii fəlakətlər artdıqca, koronavirus pandemiyasının insanların gündəlik həyatına təsiri qaldıqca ərzaq və kənd təsərrüfatı sistemlərinin bütünlükdə yenilənməsi, innovasiyaların aqrar sektora kütləvi tətbiqi zərurətə çevrilir. Bu zərurət Yer üzündə yüz milyonlarla insanın aclıqdan əziyyət çəkməsindən, zəruri ərzaq məhsullarının, xüsusən içməli suyun çatışmazlığından doğur.

Günümüzədək gəlib çatan aqrar-ərzaq sistemləri biomüxtəlifliyin itirilməsi və iqlim dəyişiklikləri səbəbindən ciddi təsirlərə məruz qalmışdır. Bu isə öz növbəsində zəruri olan qida məhsullarının istehsal zəncirində bir sıra problemlər yaratmışdır. Bu yerdə xatırladaq ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) dünya əhalisinin kifayət qədər ərzaq məhsulları ilə təmin edilməsini, qidaların keyfiyyətinin yaxşılaşdırılmasını, onların həcminin artırılmasını və ətraf mühitin vəziyyətinin sağlamlaşmasını qarşıya məqsəd kimi qoyan cəsarətli konsepsiya işləmişdir. Həmin sənəd çərçivəsində bu gün bütünlükdə aqrar sektor fərqli yanaşmalara səmtlənməkdədir.

Ardı 6-cı səh.

# «Azəri-Çıraq-Günəşli» hələ uzun illər Azərbaycana gəlir gətirəcək

"Azəri-Çıraq-Günəşli"(AÇG) yataqları 27 ildir etibarlı tərəfdaşlıq, ekoloji baxımdan zərərsiz əməliyyatlar sayəsində təhlükəsiz işlənir və 24 ilə yaxındır ahəngdar şəkildə neft-qaz verir.

Hazırda bu yataqlar blokundan hasil edilən karbohidrogenlər platformalardan sualtı xətlərlə Səngəçal terminalına çatdırılır və buradan ixrac marşrutları ilə istehlakçılara yola salınır.

Prezident İlham Əliyev "Azəri-Çıraq-Günəşli"də hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu qeyd edərək dəfələrlə vurğulamışdır ki, bu yataqlar bizim əsas gəlir mənbəyimizdir və bunu hər kəs bilməlidir.



Budur, Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) İctimaiyyətlə əlaqələr departamenti AÇG neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində cari ilin yanvar-iyul aylarında əldə olunan gəlirlərin həcmini açıqlayıb. 7 ay ərzində bu gəlirlər 2 milyard 903,2 milyon ABŞ dolları təşkil edib. 2001-ci ildən bu il avqustun 1-dək isə AÇG üzrə əldə edilən ümumi gəlirlər 152 milyard 308 milyon dollar olub. Dövlət Neft Fondunun 2020-ci ildə AÇG layihəsi üzrə gəliri 3 milyard 522,7 milyon dollar təşkil etmişdi.

Ardı 6-cı səh.

# Vaksinasiya ilə yanaşı, tələb edilən qaydalara riayət olunmalıdır

Koronavirus yenidən meydanını genişləndirməkdə, aldığı canların sayını artırmaqda davam edir. Dünyada bu təhlükəli virusa yoluxanların ümumi sayı 203 milyon 500 min nəfərə yaxınlaşır. Koronavirus səbəbindən 4 milyon 307 mindən çox insan həyatını itirib.

### Vəziyyət narahatlıq doğurur

Virusa yoluxma sayına görə, ilk beşlikdə olan dövlətlər ABŞ, Hindistan, Braziliya, Rusiya və Fransadır. Bu ölkələrdə koronavirusdan vəfat edənlərin sayı da yüksəkdir. Sərhəd qonşularımız arasında COVID-19-dan ən çox ölüm ardıcıl olaraq Rusiya, İran və Türkiyədə qeydə alınıb. Son günlər qonşu ölkələrdə koronavirus xəsətələri arasında ölüm göstəriciləri yenidən artıb. Hətta Rusiyada və İranda COVID-19-dan ölənlərin sayında rekord göstərici qeydə alınıb.

Azərbaycanda da vəziyyət dəyişib. Virusa gündəlik yoluxmada və ölüm sayında artım davam edir. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, koronavirus infeksiyasına yoluxanların sayı 1000-dən çoxdur. Yoluxma səbəbindən vəfat edənlərin ümumi sayı isə artıq 5 mini ötüb.

Ardı 5-ci səh.

# Prezidentin tapşırığına uyğun olaraq “Abşeron” yarımstansiyası əsaslı şəkildə yenidən qurulub





*Əvvəli 1-ci səh.*

Bu layihələrin hazırda dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda da uğurla icra olunması Azərbaycan dövlətinin qüdrətini nümayiş etdirməklə yanaşı, ölkəmizdə sosial infrastrukturun daha da müasirləşdirilməsi üçün atılan addımların ardıcıl olduğunu göstərir. “Abşeron” yarımstansiyasının müasir səviyyədə yenidən qurulması da Azərbaycanda enerjisistemin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi baxımından böyük rol oynayır.







Yenidənqurma işləri çərçivəsində köhnə idarəetmə binası əsaslı təmir edilib. Məhz burada ilk dəfə 22 nömrədən ibarət mühəndis-yataqxana korpusu inşa olunub, işçilərin istirahəti, idmanla məşğul olması, asudə vaxtlarını səmərəli keçirməsi üçün hərtərəfli şərait yaradılıb. Yarımstansiyanın strateji əhəmiyyəti nəzərə alınaraq, onun səmərəli və etibarlı iş rejiminin, dayanıqlığının artırılması, istismar xərclərinin azaldılması, işçi heyəti üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılmasına tam nail olunub.

Qeyd edək ki, “Abşeron” enerji qovşağı nəinki Bakı və Abşeron yarımadasının, bütövlükdə ölkənin enerji sisteminin əsas bazası hesab olunur. Belə ki, Mingəçevir, Şirvan və digər şəhərlərdə yerləşən iri elektrik stansiyalarından çox böyük həcmdə yük, məhz “Abşeron” yarımstansiyasına, buradan isə sistem əhəmiyyətli 330, 220 kilovoltluq yarımstansiyalara ötürülür.

Yenidənqurma işləri zamanı yarımstansiyanın 500 və 330 kilovoltluq açıq paylayıcı qurğularında avadanlıqlar yenilənib, ərazi genişləndirilib, yeni 220 kilovoltluq açıq paylayıcı qurğu inşa edilib. Həmçinin İdarəetmə mərkəzi tikilib və müasir qurğularla təchiz olunub. İdarəetmənin təkmilləşdirilməsi, yarımstansiyanın işinə real zaman rejimində nəzarət olunması və göstəricilərin “Azərenerji”nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunub. Beləliklə, yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb. Eyni zamanda dispetçer idarəetmə otağında mərkəzi SCADA sistemi tam həcmdə təkrar ehtiyat variantda quraşdırılıb.

Prezident İlham Əliyev “Abşeron” yarımstansiyasını işə saldı.

Yarımstansiya Azərbaycanın 4 ən böyük istilik elektrik stansiyası - “Azərbaycan” İstilik Elektrik Stansiyası, “Sumqayıt”, “Şimal” və “Cənub” Elektrik stansiyaları, həmçinin Mingəçevir Su-Elektrik Stansiyası, “Səngəçal”, “Qobu” Elektrik stansiyaları, “Xaçmaz” modul tipli elektrik stansiyası ilə əlaqələndirilib. Beləliklə, bu yarımstansiya bu qədər böyük generasiya mənbələri ilə əlaqələndirilən yeganə qovşaq yarımstansiyasıdır.

Yarımstansiyanın əsaslı şəkildə yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, elektrik təchizatının etibarlığının və dayanıqlığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir standartlara cavab verən innovativ həllərin tətbiqinə nail olunub.

Qarşıda duran layihələrdən biri də Rusiya ilə mövcud Yaşma-Dərbənd xəttinə paralel olan yeni 330 kilovoltluq Dərbənd-Abşeron xəttinin tikintisidir. Bununla əlaqədar yarımstansiyada genişləndirmə işləri aparılıb.



# QMİ sədri din xadimləri ilə videokonfrans formatında görüş keçirib

Avqustun 9-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə din xadimləri ilə videokonfrans formatında görüş keçirib. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun qatıldığı videogörüşdə QMİ-nin paytaxt, bölgələrdəki qazı, imam və səlahiyyətli nümayəndələri iştirak ediblər.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şeyxülislam A.Paşazadə videoiclasın iştirakçılarını salamlayıb, ilk növbədə, Vətən uğrunda canlarından keçən şəhidlərimizi yad edib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun rəşadəti sayəsində qazandığımız uğur üçün Uca Allaha həmd-səna edən Şeyxülislam A.Paşazadə vurğulayıb ki, din xadimlərinin mənəvi dəstəyi, müqəddəs dinimizin aşıladığı yüksək dəyərləri insanlara təlqin etməsi, ən çətin anlarında insanların yanında olması xalqımız tərəfindən minnətdarlıqla qarşılanır. Bunun üçün din xadimlərinə təşəkkürünü bildirən QMİ-nin sədri xüsusən cəbhəyanı bölgədəki din xadimlərinin fədakar əməyini, 44 günlük Vətən müharibəsi dövründə bütün ölkə boyu şəhidlərimizin ailələrinə dəstək verilməsinin şanlı Zəfərimizdən sonra da davam etdirilməsini təqdir edib. Din xadimləri ilə birgə Ağdam, Şuşa səfərlərini xatırladan Şeyxülislam A.Paşazadə işğaldan azad olunmuş torpaqlarımızda dövlətimiz tərəfindən aparılan genişmiqyaslı, qürurverici bərpa-tikinti işlərini rəğbətlə vurğulayıb, Uca Allahdan bu işlərə rəvac, dövlət rəhbərimizə böyük uğur və nailiyyətlər diləyib.

Şeyxülislam A.Paşazadə Hicri-qəməri təqvimi ilə 1443-cü ilin Məhərrəm ayının başlanması ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının və səlahiyyətli nümayəndələrinin müraciət qəbul etdiyini diqqətə çatdırıb. Bildirib ki, builki Məhərrəm ayını 30 illik Qarabağ həsrətinin sonu, illər boyu dua etdiyimiz zəfər səadəti ilə qarşılayırıq. Şeyxülislam A.Paşazadə xüsusi vurğulayıb ki, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamı torpaq və vətən uğrunda şəhidlikdir. Əhli-beytə, imamlarımıza ehtiram ənənəsi olan Azərbaycanda İmam Hüseyn əleyhissalamın xatirəsi imanın, əqidəyə sadiqliyin, Vətən, torpaq naminə şəhidlik məktəbinin ən bariz nümunəsi və əbədi təcəssümü olaraq anılır.



Məhərrəmlik ayında ibadətlərlə bağlı danışan Şeyxülislam A.Paşazadə bildirib ki, bu il də dünyada davam edən koronavirus bəlası ilə əlaqədar müvəqqəti məhdudiyyətlər şəraitində keçəcəkdir. Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da məcburi karantin tədbirləri virus təhlükəsinin çoxalmaması üçün insanların sıx toplaşmaması qaydalarını nəzərdə tutur. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, sosial məsafənin təmini mümkün olmayan kütləvi mərasimlərdə virusa yoluxma sayının artma təhlükəsini nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri tövsiyə edirlər ki, bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda ibadətlərin və mərasimlərin karantin qaydalarına uyğun olaraq keçirilməsi vacibdir.

QMİ-nin sədri son illər ərzində Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsinin ən münasib əzadarlıq nümunəsi olduğunu bir daha vurğulayaraq, bu il də humanist ənənənin davam etdiriləcəyini, pandemiya səbəbindən dindarların Qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında İmam Hüseyn xatirinə ehsan niyyəti ilə qan verəcəklərini diqqətə çatdırdı.

Sonra QMİ sədrinin müavini Sabir Həsənli Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının və səlahiyyətli nümayəndələrinin müraciətini oxuyub. QMİ sədri Şeyxülislam A.Paşazadə dini mərkəzin yerlərdəki qazıları, səlahiyyətli nümayəndələri və imamlarına bu müraciətin müddəalarını dindarların nəzərinə çatdırmalarını, müvafiq dövlət qurumları ilə əməkdaşlıq və koordinasiya edərək, dini ayinlərin operativ qərargahın qayda və tövsiyələrinə riayət olunması şərti ilə yerinə yetirilməsini təmin etmələrini tapşırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov videoiclasda çıxış edərək Məhərrəm ayının təziyələri münasibətilə dindarlara başsağlığı verib və İmam Hüseynin şəhadət məktəbinin əhəmiyyətini vurğulayıb. QMİ-nin müraciətinin müfəssəl hazırlandığını qeyd edən G. İsmayılov şeyxülislamın Vətən müharibəsi dövründə din xadimlərinin zəhmətlərinin böyük olması ilə bağlı fikirlərini bölüşdüyünü bildirib.

Videoiclasda QMİ sədrinin birinci müavini, müfti Salman Musayev, Naxçıvan Muxtar Respublikası üzrə qazı Sahib Məmmədov, Sumqayıt şəhəri üzrə qazı Rauf Sərdarov, Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndə Şahin Həsənli, cənub bölgəsi üzrə səlahiyyətli nümayəndə Qəni Axundzadə, Gəncə üzrə qazı Tahir Abbasov, Səbail rayonu üzrə qazı Rahib Babayev, şimal bölgəsi üzrə qazı Naib Səttarov və başqaları çıxış ediblər. Din xadimləri bildiriblər ki, QMİ-nin Qazılar Şurasının qəbul etdiyi müraciətdən irəli gələn məqamlara riayət olunmaqla Məhərrəmlik dönəmi yüksək mənəvi amallar səviyyəsində, İmam Hüseynin şəninə layiqli və şəhidlərimizin anılması şəraitində keçiriləcəkdir.

Şeyxülislam A.Paşazadə iclas iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan dindarları və din xadimləri adından həmkarı - qardaş Türkiyənin Diyanət işləri başqanı Ali Ərbaşa məktub ünvanlayaraq yanğınlar zamanı həlak olanlarla bağlı başsağlıqlarını onun vasitəsilə bütün Türkiyə xalqına yetirib. Türkiyə dövlətinin yanğınlardan tezliklə xilas olması üçün dualar edən Şeyxülislam A.Paşazadə hər zaman - sevincli və kədərli günlərdə bir olduqları kimi, yanğınların qarşısının alınmasında da Azərbaycan xalqının Türkiyə xalqının yanında olduğunu fəxarətlə vurğulayıb, yanğınsöndürənlərimizin qardaş ölkədə fədakarlığını xüsusi qeyd edib.

QMİ-nin sədri videoiclasın yekununda dualar edib ki, dünya və ölkəmiz pandemiya imtahanından tezliklə qurtulsun, Vətənimizdə salamatlıq və əmin-amanlıq hökm sürsün.

## “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Diplomatik xidmət haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 24 noyabr tarixli 202-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, №11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011,№ 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114) 28.9-cu maddəsinə “qəbul edildikdə,” sözlərindən sonra “habelə bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş (kiçik rəis heyəti və sıravi heyət vəzifələrini tutan və ya əvvəllər tutmuş şəxslər istisna olmaqla) və xüsusi (hərbi, diplomatik) rütbəyə malik olan şəxslər dövlət qulluğuna qəbul edildikdə,” sözləri əlavə edilsin.

**Maddə 2.** “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, №11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 12 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397, № 12 (I kitab), maddə 2473; 2020, № 7, maddə 828; Azərbaycan Respublikasının 2021-ci il 27 aprel tarixli 308-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 5.4-1-ci maddə əlavə edilsin:

“5.4-1. Prokurorluğa qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində stajorluq və ya sınaq müddəti müəyyən edilmir.”;

2.2. 18.9-cu maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Prokurorluğa qulluğa qəbul edilən və ya dövlət qulluğundan prokurorluğa işə keçirilən şəxslərə rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 3.** “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 567; 2002, № 12, maddə 703; 2004, № 6, maddə 414; 2005, № 10, maddə 873; 2008, № 3, maddə 155; 2009, № 6, maddə 399; 2011, № 2, maddə 71; 2013, № 4, maddə 365; 2015, № 10, maddə 1084; 2016, № 2 (I kitab), maddə 188; 2017, № 6, maddə 1041, № 7, maddə 1250, № 12 (I kitab), maddə 2190) aşağıdakı məzmunda 9.3-1-ci maddə əlavə edilsin:

“9.3-1. Diplomatik xidmət orqanlarında diplomatik vəzifələrə qəbul edilən və ya dövlət qulluğundan diplomatik xidmət orqanlarında diplomatik vəzifələrə keçirilən şəxslərə diplomatik rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 4.** “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 6, maddə 481, № 8, maddələr 694, 710; 2009, № 6, maddə 399, № 11, maddə 878; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 11, maddə 944; 2011, № 2, maddələr 71, 72; 2012, № 11, maddə 1040; 2015, № 10, maddə 1089; 2016, № 6, maddə 984; 2017, № 5, maddə 729, № 7, maddə 1252; 2018, № 3, maddə 398, № 12 (I kitab), maddə 2473; 2019, № 5, maddə 797, № 12, maddə 1885; 2020, № 7, maddə 830) aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 6.5-1-ci maddə əlavə edilsin:

“6.5-1. Ədliyyə orqanlarına qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində stajorluq və sınaq müddəti müəyyən edilmir.”;

4.2. 21.13-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Ədliyyə orqanlarına qulluğa qəbul edilən və ya dövlət qulluğundan ədliyyə orqanlarına qulluğa keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 5.** “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 714; 2015, № 2, maddə 103, № 10, maddə 1088; 2016, № 2 (I kitab), maddə 191, № 6, maddə 986; 2017, № 7, maddə 1254; 2018, № 3, maddə 390, № 12 (I kitab), maddə 2473; 2020, № 7, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 6.5-1-ci maddə əlavə edilsin:

“6.5-1. Fövqəladə hallar orqanlarında xidmətə qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində sınaq müddəti müəyyən edilmir.”;

5.2. 21.15-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Fövqəladə hallar orqanlarına xidmətə qəbul edilən və ya dövlət qulluğundan fövqəladə hallar orqanlarına xidmətə keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 6.** Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12; 2001, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57; 2005, № 4, maddə 274, № 7, maddə 590; 2006, № 11, maddə 926; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 8, maddələr 694, 696; 2009, № 6, maddələr 399, 406; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddə 273, № 7, maddə 599; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1041; 2013, № 2, maddə 93; 2016, № 2 (I kitab), maddə 192; 2017, № 7, maddə 1255; 2018, № 12 (I kitab), maddə 2474; 2021 № 1, maddə 10; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 304-VIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

6.1. aşağıdakı məzmunda 18-1-ci maddə əlavə edilsin:

“18-1. Gömrük orqanlarına xidmətə qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində sınaq müddəti müəyyən edilmir.”;

6.2. 58-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Gömrük orqanlarına xidmətə qəbul edilən və ya dövlət qulluğundan gömrük orqanlarına xidmətə keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 7.** Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 443; 2006, № 6, maddə 486, № 11, maddə 927, № 12, maddə 1013; 2007, № 1, maddə 1, № 5, maddə 441, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 4, maddə 253; 2009, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 6, maddə 484; 2016, № 2 (I kitab), maddə 194; 2017, № 7, maddə 1259; 2018, № 12 (I kitab), maddə 2474; 2020, № 5, maddə 526) ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

“13-1. Vergi orqanlarına xidmətə qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində sınaq müddəti müəyyən edilmir.”;

7.2. 17-ci maddənin birinci cümləsindən “məhkəmə və” və “və ixtisas dərəcələrinə” sözləri çıxarılsın;

7.3. aşağıdakı məzmunda 17-1-ci maddə əlavə edilsin:

“17-1. Vergi orqanlarına xidmətə qəbul edilən və ya dövlət qulluğundan vergi orqanlarına xidmətə keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

**Maddə 8.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453, № 12, maddə 731; 2004, № 10, maddə 760; 2005, № 4, maddə 280, № 10, maddələr 871, 872; 2006, № 10, maddə 846, № 11, maddə 927; 2007, № 8, maddə 756, № 11, maddələr 1073, 1081; 2008, № 3, maddə 155, № 10, maddə 882; 2009, № 2, maddə 48, № 6, maddə 399; 2010, № 3, maddə 171, № 4, maddə 273, № 12, maddə 1057; 2011, № 1, maddə 13, № 2, maddə 71; 2013, № 5, maddə 462; 2015, № 5, maddə 489, № 10, maddə 1090; 2016, № 2 (I kitab), maddə 187; 2017, № 3, maddə 342, № 7, maddə 1249; 2018, № 12 (I kitab), maddə 2474) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

8.1. aşağıdakı məzmunda 26-1-ci maddə əlavə edilsin:

“26-1. Daxili işlər orqanlarında xidmətə qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində sınaq müddəti müəyyən edilmir.”;

8.2. aşağıdakı məzmunda 59-1-ci maddə əlavə edilsin:

“59-1. Daxili işlər orqanlarına xidmətə qəbul edilən və ya dövlət qulluğundan daxili işlər orqanlarına xidmətə keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”;

8.3. 155-ci maddənin birinci cümləsindən “ixtisas dərəcələri,” sözləri çıxarılsın.

**Maddə 9.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972; 2010, № 4, maddə 273, № 5, maddə 385; 2011, № 4, maddə 271; 2012, № 5, maddə 412, № 11, maddələr 1042, 1050; 2013, № 3, maddə 228, № 12, maddə 1468; 2016, № 6, maddə 985; 2017, № 7, maddə 1256, № 8, maddə 1508, № 12 (I kitab), maddə 2206; 2018, № 3, maddə 391, № 12 (I kitab), maddə 2474; 2020, № 5, maddə 521) ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

9.1. aşağıdakı məzmunda 21-1-ci maddə əlavə edilsin:

“21-1. Miqrasiya orqanlarına qulluğa qəbul edilən dövlət qulluqçusunun və ya əvvəllər dövlət qulluğunda işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsinin xüsusi rütbələrə uyğunlaşdırılması həyata keçirilərkən onun barəsində sınaq müddəti müəyyən edilmir.”;

9.2. 67-ci maddədən “, ixtisas dərəcəsi” sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Miqrasiya orqanlarına qulluğa qəbul edilən və ya dövlət qulluğundan miqrasiya orqanlarına qulluğa keçirilən şəxslərə xüsusi rütbə verilərkən onların dövlət qulluğunda malik olduqları ixtisas dərəcəsi “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzərə alınır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

---

## Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444; 2006, № 12, maddə 1029; 2007, № 5, maddə 442, № 6, maddə 562, № 8, maddə 756; 2009, № 12, maddə 948; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 643; 2013, № 3, maddə 214; 2014, № 4, maddə 325; 2015, № 1, maddə 1; 2016, № 1, maddə 7; 2017, № 11, maddə 1961; 2018, № 3, maddə 406, № 5, maddə 848; 2019, № 2, maddə 186; 2020, № 7, maddə 839) 2.5-ci maddəsində “orqanı” sözü “orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

2. “Dəniz limanları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 464; 2019, № 6, maddə 990; 2020, № 6, maddə 663) 3.1.2-ci maddəsində “orqanı” sözü “orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

---

## “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 368-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında” 2001-ci il 19 iyul tarixli 541 nömrəli, “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 371-IVQD nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 6 iyul tarixli 669 nömrəli, “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” 2014-cü il 14 may tarixli 161 nömrəli, “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 40-VQD nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 27 yanvar tarixli 751 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin icrasının təmin edilməsi barədə” 2001-ci il 3 noyabr tarixli 594 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 368-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 478; 2005, № 2, maddə 69; 2006, № 12, maddə 1053; 2007, № 6, maddə 601; 2012, № 12, maddə 1239; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 877; 2017, № 8, maddə 1521; 2018, № 5, maddə 945, № 9, maddə 1840) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddə “4.4-cü maddəsində (birinci halda)” sözləri “2.5-ci və 4.4-cü (birinci halda) maddələrində” sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddə “14.2-ci və 22.4-cü maddələrində” sözləri “4.1-ci, 4.2-ci, 5.1-ci, 5.2-ci, 8.2-ci, 12.1-ci, 13.2-ci, 14.2-ci, 15.3-cü, 18.2-ci, 22.4-cü, 22.6-cı (birinci halda), 25.1-ci, 29.2-ci, 30.3.1-ci, 44.4-cü maddələrində, 61.2-ci maddəsinin birinci cümləsində, 62.1-ci, 63.1-ci, 63.2-ci, 63.3-cü, 64.1-ci, 67.3-cü, 68-ci, 89-cu (hər iki halda) maddələrində, 182.2-ci maddəsinin birinci cümləsində və 265.4-cü maddəsində” sözləri ilə əvəz edilsin;

1.3. 2.8-ci bənddə “nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini” sözləri “orqan (qurum)” dedikdə” sözləri ilə, “Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri “Azərbaycan İnvestisiya Holdinqi” sözləri ilə və “həyata keçirir” sözləri “nəzərdə tutulur” sözləri ilə əvəz edilsin;

1.4. 2.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.10-cu bənd əlavə edilsin:

“2.10. həmin Məcəllənin 20-ci, 27.2-ci və 275.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.”.

2. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 371-IVQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 669 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 678) 3-cü hissəsi ləğv edilsin.

3. “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 may tarixli 161 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 474; 2015, № 9, maddə 990; 2020, № 1, maddə 10, № 3, maddə 236) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə “5.4-cü maddəsində və” sözləri “3.1.2-ci və 5.4-cü maddələrində,” sözləri ilə əvəz edilsin;

3.2. 3.2-1-ci bənddə “nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini” sözləri “orqan (qurum)” dedikdə” sözləri ilə, “Azərbaycan Respublikasının Nazirlər Kabineti” sözləri “Azərbaycan İnvestisiya Holdinqi” sözləri ilə və “həyata keçirir” sözləri “nəzərdə tutulur” sözləri ilə əvəz edilsin.

4. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 40-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 yanvar tarixli 751 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 73) 3-cü hissəsi ləğv edilsin.

5. “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 noyabr tarixli 594 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 702; 2003, № 6, maddə 286; 2006, № 11, maddə 945; 2008, № 8, maddə 719, № 11, maddə 980; 2012, № 7, maddə 678, № 12, maddə 1240; 2016, № 5, maddə 878, 2018, № 9, maddə 1840) ləğv edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 368-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

---

## “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Diplomatik xidmət haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 362-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Diplomatik xidmət haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 362-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 584; 2003, № 8, maddə 441; 2005, № 11, maddə 1009; 2009, № 6, maddə 419; 2010, № 3, maddə 183; 2013, № 12, maddə 1506, 2015, № 2, maddə 120; 2020, № 12 (I kitab), maddə 1480; 2021; № 3, maddə 221) ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları”nın 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“7. Dövlət qulluqçusuna ilk dəfə ixtisas dərəcəsi ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali - üçüncü təsnifatına uyğun olan vəzifəyə təyin edildikdə və 1 - 5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci - yeddinci təsnifatına uyğun olan vəzifələr üzrə daimi dövlət qulluğuna qəbul edildikdə, yardımçı vəzifə iddiasında olanlara isə müvafiq vəzifəyə təyin edildikdə verilir.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Dövlət qulluğu haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Diplomatik xidmət haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 362-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

---

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 iyun tarixli 936 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı dəniz limanında göstərilən xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 iyun tarixli 936 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1032) ilə təsdiq edilmiş “Dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı dəniz limanında göstərilən xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi Qaydası”nın 1.4-cü bəndində “Azərbaycan Respublikası Tarif (qiymət)” sözləri “Koordinasiya” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

---

## H.H.İbrahimovun Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Həbib Hüseyn oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 avqust 2021-ci il*

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Avqustun 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan-Ermənistan dövlət sərhədindəki mövcud vəziyyəti və üçtərəfli bəyanatların icrası ilə əlaqədar məsələləri, o cümlədən bölgədə iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə bağlı üçtərəfli işçi qrupunun fəaliyyətinə dair məsələləri müzakirə ediblər.




Tərəflər eyni zamanda ikitərəfli əməkdaşlığın gündəliyinə daxil olan məsələlər, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Belçikanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib



Avqustun 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri Mişel Pitermansın etimadnaməsinin surətini qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov səfir Mişel Pitermansı təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb. Nazir Azərbaycan ilə Belçika arasında mövcud olan ikitərəfli münasibətlərin uğurlu inkişafını, həmçinin iki ölkə arasında geniş əməkdaşlıq gündəliyinin mövcudluğunu məmnunluqla qeyd edib. O, eyni zamanda Azərbaycanın Avropa İttifaqı ilə qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərindən bəhs edib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə Ermənistanın Azərbaycana qarşı həyata keçirilən təcavüzkar siyasətinin tarixi, beynəlxalq ictimaiyyətin bu xüsusda mövqeyi, 44 günlük Vətən müharibəsi, üçtərəfli bəyanatların imzalanmasından sonra bölgədəki mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası və orada həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Səfir Mişel Pitermans öz növbəsində qəbula görə nazir Ceyhun Bayramova təşəkkürünü ifadə edərək, Azərbaycana təyin olunmasından məmnunluq hissi keçirdiyini bildirib. Səfir iki ölkə arasında əlaqələrin uğurlu inkişafını qeyd edib, Azərbaycan ilə Belçikanın iqtisadi, ticarət, kommersiya və təhsil sahələrində əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərinə toxunub, qarşılıqlı tələbə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Tərəflər Azərbaycan ilə Belçika arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdə habelə digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Avqustun 8-də Azərbaycan Ordusunun hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, COVID-19 virusunun yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi qaydalarının tələbləri nəzərə alınaraq andiçmə mərasimində əsgər yaxınları ilə şəxsi heyətin görüşləri təşkil edilməyib. Andiçmə mərasimləri kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılıb, hərbi qulluqçulardan müsahibələr alınıb və ilk dəfə olaraq gənc əsgərlərin ailələri ilə videogörüntülü (onlayn formatda) əlaqə qurması üçün şərait yaradılıb.

Andiçmə mərasimi bütün hərbi hissələrdə hərbi rituallara uyğun və xüsusi karantin rejimi qaydalarının tələbləri nəzərə alınaraq keçirilib.

"Bəzi vətəndaşlar pandemiya ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejiminin tələblərini və hərbi hissənin ərazisinə daxilolma qaydalarını kobud şəkildə pozmaqla hərbi hissənin ərazisinə daxil olmağa, əsgərlərlə görüşməyə cəhd ediblər.

Hərbi hissə komandanlığı bu cür addımların qarşısının alınması məqsədilə müvafiq tədbirlər görüb. Lakin uzaq yerlərdən gələn bəzi valideynlərin israrlı xahişləri və uzaq yol qət etmələri nəzərə alınaraq xüsusi karantin rejiminin tələblərinə ciddi riayət edilməklə onların öz övladları ilə qısamüddətli görüş keçirmələrinə şərait yaradılıb. Bildirirık ki, COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi qaydalarının tələblərinə müvafiq olaraq əsgər valideynlərinin və yaxınlarının şəxsi heyətlə görüşlərinə ciddi məhdudiyyətlər tətbiq olunur.

Ordu sıralarında COVID-19 virusunun yayılmasının qarşısını almaq məqsədilə hərbi qulluqçuların yaxın ailə üzvlərini və qohumlarını ölkə miqyasında və orduda tətbiq olunan karantin qaydalarına ciddi riayət etməyə çağırırıq", - deyə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

# Ermənistan silahlı qüvvələri Naxçıvan istiqamətində mövqelərimizi atəşə tutublar

Avqustun 9-u saat 00:10-dan 00:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini fasilələrlə atıcı silahlardan atəşə tutublar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

Qarşı tərəf cavab atəşi ilə susdurulub.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Ordumuzun zabiti döyüş atışlı məşğələ zamanı bədbəxt hadisə nəticəsində həlak olub

Avqustun 9-u səhər saatlarında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin poliqonunda keçirilən döyüş atışlı məşğələ zamanı bədbəxt hadisə baş verib. Hadisə zamanı leytenant Babayev İlqar Rüfət oğlu həlak olub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər. Məlumatda qeyd olunub ki, hazırda hadisənin səbəbləri araşdırılır.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Müdafiə naziri "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək komandamızın hazırlığını yoxlayıb

Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək komandamızın hazırlığını yoxlamaq üçün Hərbi Dəniz Qüvvələrində (HDQ) olub.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulub və xatirəsinə dərin ehtiram ifadə edilib.





Müdafiə naziri müsabiqədə iştirak edəcək heyətin təminat və təchizatı, eləcə də ölkəmizi təmsil edəcək gəmilərin və şəxsi heyətin hazırlıq səviyyəsini yoxlayıb.

Məruzə edilib ki, avqustun 22-dən İranın Ənzəli şəhərində keçiriləcək müsabiqəyə hərbi dənizçilərimizin 66 nəfərlik heyətlə "G-122" və "G-124" gözətçi gəmilərində qatılması planlaşdırılır.

Nazir hər zaman müsabiqədə yüksək nəticələr əldə edən hərbi dənizçilərimizə uğurlar arzulayıb və ölkəmizi layiqincə təmsil etmələri üçün onlara müvafiq tapşırıqlar verib.

Sonra müdafiə nazirinə əsaslı təmirdən çıxmış "G-121" gözətçi gəmisi təqdim olunub. Qeyd edilib ki, bu gəmi dənizdə düşmən hədəflərinin məhv edilməsi, neft-qaz boru kəmərlərinin mühafizəsi və enerji infrastrukturunun diversiya qruplarından qorunması tapşırıqlarını müvəffəqiyyətlə icra etmə qabiliyyətinə malikdir.

"G-121" gözətçi gəmisinə baxış zamanı görülən işləri yüksək qiymətləndirən nazir HDQ hərbi qulluqçularının peşəkarlıq səviyyəsinin daha da artırılması istiqamətində müvafiq tapşırıqlar verib.

Sonda HDQ-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.



# "Xatirələrdə, ürəklərdə yaşayır Babək" adlı tədbir hər kəsi qürurlandırıb

Respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edən, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərən, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirərək şəhidlik zirvəsinə ucalan igid oğullarımızın doğum və anım günləri silsilə vətənpərvərlik tədbirləri ilə qeyd edilir, onların məzarları ziyarət olunur, ailələrinə baş çəkilir, xatirələri ehtiramla yad olunur.



Vətən müharibəsinin unudulmaz şəhidlərindən olan polkovnik-leytenant Babək Meyvəddin oğlu Ramaldanovun doğum günündə Müdafiə Nazirliyinin rəsmiləri, ailə üzvləri və yaxınları, eləcə də döyüşçü dostları, ictimaiyyət nümayəndələri İkinci Şəhidlər xiyabanına gələrək şəhidin məzarı üzərinə əkillər qoyub, çiçəklər düzüb, xatirəsini ehtiramla yad ediblər. Din xadimi şəhidlərin ruhuna dualar oxuyub, hərbi ənənələrə uyğun olaraq bir dəqiqəlik sükut elan edilib, orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, polkovnik Abdulla Qurbani qəhrəman zabitin qısa, lakin şərəfli ömür yolu, Azərbaycan Ordusundakı şərəfli xidmətləri və Vətən müharibəsində göstərdiyi komandirlik məharəti, şəxsi mərdlik və şücaət nümunələri barədə ətraflı məlumat verib.

Nəzərə çatdırılıb ki, Babək Meyvəddin oğlu 1982-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi), 2004-cü ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin (indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi) "Zabit ixtisas kursu"nu bitirib.

Gənc leytenant B.Ramaldanov Azərbaycan Ordusunda motoatıcı taqım komandirliyindən hərbi hissənin qərargah rəisi - briqada komandirinin müavini vəzifəsinə və polkovnik-leytenant hərbi rütbəsinədək yüksəlib.

Hansı hərbi hissədə, hansı vəzifədə xidmətindən asılı olmayaraq qarşıya qoyulan xidməti vəzifələrin öhdəsindən layiqincə gəlib, komandanlığın göstərdiyi etimadı ləyaqətlə və vicdanla doğruldub, şəxsi heyət arasında böyük hörmət qazanıb.

Peşəkar, təcrübəli, intellektual səviyyəli, yüksək əxlaqi-mənəvi və iradi keyfiyyətlərə malik zabit kimi tanınıb.

2019-cu ildə Rusiya Federasiyası Müdafiə Nazirliyinin Ümumqoşun Akademiyasını fərqlənmə diplomu və qızıl medalla bitirib. Adı akademiyanın "Şərəf kitabı"na yazılıb.

A.Qurbani bildirib ki, Babək Ramaldanov sağlığında "Azərbaycan Ordusunun 90 illiyi (1918-2008)", "Azərbaycan Ordusunun 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları, o cümlədən "Qüsursuz xidmətə görə 2-ci və 3-cü dərəcəli" medallarla təltif olunub.

Vətən müharibəsinin ilk günlərindən Murovdağın strateji yüksəkliklərinin azad edilməsi uğrunda müqəddəs savaşa atılan igid zabitimiz sonralar Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrinin azad edilməsi naminə aparılan hərbi əməliyyatlarda iştirak edərək hərbi hissənin qarşısına qoyulan döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyib.

2020-ci il oktyabrın 16-da Cəbrayıl rayonunun Hovuslu kəndini azad edərkən şəhidlik zirvəsinə ucalan igid zabitimizin nəşi iki gün sonra döyüş meydanından çıxarılaraq böyük izdihamın iştirakı ilə İkinci Şəhidlər xiyabanında dəfn olunub.

Cəbhələrdə onunla tez-tez rastlaşan və qəhrəmanlıqlarına yaxından bələd olan polkovnik A.Qurbani "Xan oğlan xan dayısına çəkər" el məsəlini xatırladaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Babək Ramaldanov xalqımızın və Ordumuzun şəxsi heyətinin yaxşı tanıdığı, Ulu Öndər Heydər Əliyevin 50 əvvəl yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk məzunlarından biri, Milli Ordu quruculuğunda müstəsna xidmətləri olan, 1993-1994-cü illərin məşhur "Horadiz əməliyyatı"nın qəhrəmanı, iki dəfə "Azərbaycan Bayrağı" ordeni və bir çox döyüş medalları ilə təltif olunan polkovnik Şair Ramaldanovun bacısı oğludur və o da dayısına çəkib, dayısının yolunu seçib və Ramaldanovlar ailəsinin şərəfini həmişə uca tutub.

Şəhidin anası Xalidə xanım otuz ildən çoxdur ki, hərbi liseydə çalışır, gələcək zabitlərin, generalların daha sağlam, gümrah böyüməsi üçün səylərini əsirgəmir.

Ramaldanovlar ailəsi Azərbaycan Ordusuna ondan çox peşəkar zabit bəxş edib və onlar bu gün də Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edirlər.

Ehtiyatda olan polkovnik Şair Ramaldanov bacısı oğlu ilə fəxr etdiyini vurğulayıb. Bütün şəhidlərimiz kimi, Babəkin də intiqamının döyüş meydanında vuruşaraq alınmasına, tarixi ədalətin, ərazi bütövlüyümüzün bərpa edilməsinə, otuzillik həsrətə son qoyulmasına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə, hər bir Vətən əsgərinə minnətdarlığını bildirib.

Babəkin dayısı oğlu, bu gün də Azərbaycan Ordusu sıralarında Vətənə sədaqətlə xidmət edən baş leytenant Əmirbəy Ramaldanov deyib: "Mən də Vətən müharibəsinin ilk günündən döyüşlərdə idim. Ermənistan üzərində Qələbə çalacağımıza, düşməni sındıracağımıza, tarixi torpaqlarımızı işğaldan azad edəcəyimizə, nəyin bahasına olursa-olsun, öz varlığımız kimi inanırdıq. Bizi döyüşdən-döyüşə, qələbədən-qələbəyə aparan Vətən torpağına sonsuz sevgimiz, döyüş ruhumuz, vətənpərvərlik hissimiz, xalq ilə ordunun mənəvi birliyi, həmrəyliyi və hər şeydən öncə, Müzəffər Ali Baş Komandanımıza inamımız idi. Biz yaxşı bilirdik ki, şəhid olsaq, qanımız yerdə qalmayacaq, qazi olsaq, yaralarımıza məlhəm tapılacaqdır, ailəmiz hər cür diqqət və qayğı ilə əhatə olunacaqdır.

Bibim oğlu Babək şəhid oldu, mən isə qanlı döyüşlərdən qalib Ordunun qalib zabiti kimi qayıtdım. Xidmətlərim də ölkə rəhbərliyi tərəfindən layiqincə qiymətləndirildi. "Azərbaycan Bayrağı" ordeni və bir neçə döyüş medalı ilə təltif olunmuşam. Kaş Babəkin də ordeni ailəsinə deyil, şəxsən onun özünə təqdim ediləydi. Nə etmək olar, qismət belə imiş. Bundan sonra mən iki ömür yaşamalıyam. Xalqımızı əmin edirəm ki, Babək qardaşımın yarıyolda qırılan cavan ömrünü də öz ömrümə qataraq bundan sonra da xidmətimi şərəflə davam etdirəcəyəm.

Şəhidin atası Meyvəddin Ramaldanov göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına, ziyarətçilərə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları Xətai rayonundakı Kazımağa Kərimov küçəsində xatirə abidəsinin açılış mərasimində iştirak ediblər. Abidə üzərində qoşa qanad kimi Birinci Qarabağ müharibəsinin şəhidi, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən Kazımağa Möhsün oğlu Kərimovun və "Azərbaycan Bayrağı" ordenli şəhid zabitimiz Babək Meyvəddin oğlu Ramaldanovun surətləri həkk olunub.

Polkovnik Abdulla Qurbani hər iki şəhidin həyat və döyüş yolları haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Kazımağa Kərimov Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirdikdən sonra bir müddət "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışıb.

1988-ci ildə doğma Vətənimizin üzərini qara buludlar aldığı bir zamanda Kazımağa Möhsün oğlu da bir Azərbaycan övladı olaraq torpaqlarımızın müdafiəsinə qalxmağa borclu olduğunu dərk edib və evini, ailəsini, hər şeydən uca tutduğu peşəsini arxada qoyaraq cəbhə bölgəsinə yollanıb. Onun döyüş yolu təkcə doğulub boya-başa çatdığı doğma Qubadlıdan deyil, həm də Goranboy rayonundan keçib.

Həmin rayonda yaradılan ilk könüllü özünümüdafiə taborlarından birinə komandir müavini təyin edilən K.Kərimov baş leytenant hərbi rütbəsi altında doğma torpaqlarımızın müdafiəsində fəal iştirak edib və 15 iyun 1992-ci ildə ömrünün 41-ci baharında şəhidlik zirvəsinə ucalıb.

Tədbirdə Milli Qəhrəman Kazımağa Kərimovun oğlu Rəşad Kərimov da iştirak edib. O, Vətən müharibəsi şəhidləri ilə yanaşı, Birinci Qarabağ müharibəsinin şəhidlərinin də unudulmadığına görə minnətdarlığını bildirib.

Mərasimdə şəhidin atası Meyvəddin Ramaldanov, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsini icra edən Pənah İmanov, şəhidin dayısı Şair Ramaldanov, "Azərbaycan Bayrağı" ordenli baş leytenant Əmirbəy Ramaldanov və ictimaiyyət nümayəndələri çıxış ediblər.

Babək Ramaldanovun nənəsi Nuridə xanım üç "polkovnik" oğulun anası, neçə-neçə zabitin nənəsi olmağı ilə fəxr etdiyini, nəticələrinin də hərbi peşələri seçəcəklərinə əminliyini bildirib və tədbir iştirakçılarına bu mübarək ziyarətləri üçün xeyir-dua verib.

Şəhidin oğlu Süleymanın söylədiyi atasına həsr olunan şeir alqışlarla qarşılanıb.

Tədbir hərbi orkestrin ifa etdiyi "Heyratı", "Mehtər" marşlarının müşayiəti və A.Qurbaninin söylədiyi şeirlə başa çatıb:

*Bayrağım Babəkin qanlı köynəyi,*
*Bu bayraq heç zaman enməyəcəkdir!*
*Oğullar yataqda, qızlar duvaqda*
*Əcəl kəfənini geyməyəcəkdir!*

*Elə oğullar var bizim Orduda,*
*Atından endirər şər qüvvələri.*
*Komandan əmrinə hazırdır bu gün*
*Hünər qüvvələri, ər qüvvələri!*

# Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

## *Etibar MİRZƏYEV:* "Türkiyədəki yanğınlar söndürüldükdən sonra Azərbaycana qürur hissi ilə qayıdacağıq"

"Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə yola salınan Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğın-xilasetmə qüvvələri təyinat məntəqələrinə çatdıqları andan yanğınlara qarşı mübarizəyə başlayıblar".



AZƏRTAC xəbər verir ki, bunu fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev avqustun 9-da Muğla vilayətinin Köyceğiz rayonunda Azərbaycan mediasının nümayəndələri üçün təşkil olunan brifinqdə deyib.

General-leytenant E.Mirzəyev qeyd edib ki, yanğınların ən güclü vaxtında Azərbaycan yanğınsöndürənləri ümumilikdə 14 rayonda, o cümlədən strateji əhəmiyyətə malik Yeniköy və Kəmərköy İstilik Elektrik stansiyaları yaxınlığında, eləcə də Muğla vilayətinin Köyceğiz, Milas, Kavaklıdere, Marmaris və digər yaşayış məntəqələrində meşə yanğınlarının söndürülməsi üçün fədakarlıqla mübarizə aparıblar. Yeniköy və Kəmərköy İstilik Elektrik stansiyalarının qorunması üçün Azərbaycan yanğınsöndürənlərinin də iştirakı ilə mühafizə zolağı yaradılıb.

Nazir müavini qeyd edib ki, Türkiyədə 240 meşə yanğınının 235-i söndürülüb. Qalan beş yanğının ikisi nəzarət altına alınıb. Üç yanğın ocağında isə söndürmə işləri davam etdirilir. Hazırda Kavaklıdere, Marmaris, Yatağan, Milas və Köyceğiz yanğın bölgəsi sayılır. Ən riskli məntəqə Köyceğiz bölgəsidir. Biz hazırda Köyceğiz rayonundayıq. Burada dörd kənd - Pınar, Qarayer, Kabakca və Çayhisar kəndləri yanğınsöndürən dəstələrimiz tərəfindən mühafizə olunur. Mühafizə zolağı 11 kilometr ərazini əhatə edir. 200 nəfərlik dəstə bu zonada sönən yanğınların soyudulması və qalan yanğınların nəzarət altına alınmasını həyata keçirir. Biz bu əraziyə gəldiyimiz andan yanğınlarla mübarizəyə başlamışıq.

FHN-in Türkiyəyə cəlb olunan canlı qüvvə və texnikalarının sayı barədə məlumat verən E.Mirzəyev bildirib: "Hazırda Türkiyədə FHN-in 743 əməkdaşı fəaliyyət göstərir. Bundan başqa, 97 texnika, o cümlədən 77 yanğınsöndürmə, 6 nasos avtomobili, 1 yanacaqdoldurma çəni, 4 qərargah avtomaşını, 2 avtobus və 1 pikap, eləcə də köməkçi texniki vasitələr, "BE-200ÇS" tipli amfibiya təyyarəsi və 1 helikopter Türkiyədə meşə yanğınlarının söndürülməsinə cəlb olunub. Helikopterimiz 134 uçuş həyata keçirib və yanğın bölgəsinə 332 ton su töküb. Amfibiya təyyarəsi isə 76 uçuş həyata keçirib və yanğınların söndürülməsi üçün 615 ton su səpib. Bu texnika və aviasiya vasitələrinin idarə edilməsi üçün biz Türkiyənin müvafiq qurumları ilə koordinasiya şəraitində çalışırıq. Biz bu gün qardaşlarımızın yanındayıq, bütün yanğınlar söndürülənə qədər də burada olacağıq. İnanıram ki, əlavə yanğınlar çıxmasa, bütün yanğınlar qısa müddətdə söndürüləcək. Əminəm ki, Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya qoyduğu bütün tapşırıqları uğurla yerinə yetirəcək və yanğınlar başa çatdıqdan sonra qürur hissi ilə Azərbaycana qayıdacağıq".

Qeyd edək ki, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Yanğınsöndürənlərimiz təyinat nöqtələrində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar. İyulun 31-də FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub. Avqustun 5-də səhər saatlarında FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi qardaş ölkəyə yola düşüb. Həmin gün FHN-in 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürəndən ibarət üçüncü yanğın-xilasetmə qrupu da Türkiyəyə yola salınıb. Avqustun 6-da axşam saatlarında FHN-in yanğın-xilasetmə qüvvələrinin 200 nəfərdən ibarət dördüncü qrupu təyyarə ilə Türkiyəyə yola salınıb.

Fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin başçılığı ilə qurumun məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti FHN-in Türkiyədəki qüvvələrinin koordinasiyalı idarə edilməsi məqsədilə qardaş ölkədədir.

# Qardaşlığın təcəssümü

*Əvvəli 1-ci səh.*

### Yanğınsöndürənlərimiz alovun yayılmasının qarşısını almağa nail olublar

Fövqəladə Hallar Nazirliyinin (FHN) Türkiyəyə yollanan üçüncü yanğın-xilasetmə qrupu avqustun 8-də Muğlada fəaliyyətə başlayıb.

FHN-in yanğın-xilasetmə qüvvələrinin üçüncü qrupunun tərkibinə 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürən daxildir. Qrupla birlikdə media nümayəndələri də Türkiyəyə səfərdə iştirak edirlər. Bu qrupun üzvləri Muğlanın ətrafında yerləşən, gərgin alov nöqtələrindən olan Çayhisar kəndində yerləşib orada yanğınla mübarizə aparırlar. Yüksək fədakarlıq nümayiş etdirən yanğınsöndürənlərimiz artıq bir neçə ərazidə yanğınların geniş əraziyə yayılmasının qarşısını almağa nail olublar.



Qardaş ölkədə tüğyan edən meşə yanğınlarının söndürülməsi üçün Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, ölkəmizdən ümumilikdə 700-dən çox şəxsi heyət, 93 yanğınsöndürmə texnikası, 1 helikopter və 1 amfibiya tipli təyyarə göndərilib.

Onu da xatırladaq ki, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola düşüb. Yanğınsöndürənlərimiz təyinat nöqtələrində yanğınların söndürülməsində fədakarlıqla çalışırlar.

İyulun 31-də FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu qardaş ölkəyə yola salınıb. Qrup Gürcüstandan keçməklə iki sutka ərzində Marmarisə çataraq birinci qrupun üzvlərinə qoşulub.

Avqustun 5-də səhər saatlarında FHN-in "BE-200ÇS" tipli amfibiya təyyarəsi qardaş ölkəyə yola düşüb. Həmin gün FHN-in 40 yanğınsöndürmə texnikası və 160 yanğınsöndürəndən ibarət üçüncü yanğın-xilasetmə qrupu da Türkiyəyə yola salınıb. Media nümayəndələrinin də yer aldığı həmin qrup Türkiyə ərazisindədir və təyinat məntəqəsi istiqamətində hərəkət edir.

Avqustun 6-da axşam saatlarında isə FHN-in yanğın-xilasetmə qüvvələrinin 200 nəfərdən ibarət dördüncü qrupu Türkiyəyə yola salınıb.

FHN-in Türkiyədəki qüvvələrinin koordinasiyalı idarə edilməsi məqsədilə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin başçılığı ilə qurumun məsul vəzifəli əməkdaşlarından ibarət nümayəndə heyəti də qardaş ölkədədir.

### Prezident Rəcəb Tayyib Ərdoğan əlavə dəstəyə görə təşəkkürünü bildirib

Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları nəticəsində insanların həlak olması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana bir daha başsağlığı verib. Prezident İlham Əliyev yanğınların söndürülməsi və onların törətdiyi fəsadların qarşısının alınması üçün Azərbaycanın Türkiyənin yanında olduğunu bir daha billdirib və həmrəyliyini ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan başsağlığına və meşə yanğınlarının ilk günlərindən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın yanğınların söndürülməsində Türkiyəyə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirib. O, Azərbaycandan olan yanğınsöndürənlərin yanğınsöndürmə əməliyyatlarında yüksək peşəkarlıq və sevgi ilə iştirak etdiklərini vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə görə təşəkkürünü bildirib və bunun Azərbaycan ilə Türkiyənin qardaşlığının və dostluğunun bariz təcəssümü olduğunu diqqətə çatdırıb.

Azərbaycandan gedən yanğınsöndürənlərin işlərinin öhdəsindən fədakarlıqla gəlmələri Türkiyə əhalisi arasında da razılıqla qarşılanıb. "Azərbaycan yanğınsöndürənləri Muğla və Marmarisdə yüksək fədakarlıq göstərirlər. Biz bir millət, iki dövlətik", - deyə Türkiyə vətəndaşı Coşqun Bayar deyib. "Şükürlər olsun ki, bu günədək burada ölən və ya xəsarət alan olmayıb. Biz inanırıq ki, yanğın qısa müddətdə söndürüləcək. Ərazi tamamilə yanğından mühafizə olunduqdan sonra isə kənd sakinləri yenidən öz evlərinə qayıdacaqlar", - deyə o bildirib.

Türkiyədə yanğınla mübarizədə irəliləyişlər var. Yanğınların əksəriyyəti söndürülsə də, mübarizə davam edir. Azərbaycan yanğınsöndürənləri qardaş ölkədə təhlükə tam aradan qaldırılana qədər mübarizə aparacaqlar.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Vaksinasiya ilə yanaşı, tələb edilən qaydalara riayət olunmalıdır

*Əvvəli 1-ci səh.*

Dünyanın bu yüksələn statistik göstəricilər qarşısında hansı tədbirlərə əl atacağı, karantin qaydalarının yenidən sərtləşdiriləbiləcəyi ilə bağlı suallar yarandığı bir vaxtda bəzi ölkələr yenidən məhdudiyyətlərə qayıdıb. Məsələn, İsraildə koronavirusa yoluxmaların artması səbəbindən məhdudlaşdırıcı tədbirlərin bir qismi yenidən qüvvəyə minib. Qapalı və ya açıq məkanlarda keçirilən tədbirlərə giriş üçün "yaşıl keçid sistemi"nin tətbiqinə başlanılıb.

Həmin sistemə görə, tədbirlərə qatılmaq istəyənlərin vaksin sertifikatı, COVID-19-dan sağaldığını göstərən sənədi və ya son 72 saat ərzində verilmiş mənfi nəticəli PCR testi cavabı olmalıdır. Həmçinin açıq və ya qapalı məkanlarda 100 nəfərdən çox şəxsin qatıldığı tədbirlərdə maska taxmaq məcburidir. Nazirliklərin əməkdaşların 50 faizi ilə işləməsi də qərarlar sırasındadır.

### Laqeydliyin acı nəticələri...

Koronavirusa görə yenidən yoluxma və ölüm sayının artdığı bir vaxtda hər gün rastlaşdığımız mənzərələr bir çoxlarının həm özünün, həm da ətarfındakı insanların həyatına, sağlamlığına laqeyd yanaşdığını göstərir. Şəhərdə hərəkət edən avtobusların bir çoxunda sərnişinlər də, sürücülər də maskadan ya, ümumiyyətlə, ya da doğru istifadə etmirlər. Metroda da vəziyyət, demək olar ki, eynidir. Burada da sərnişinlərin əksəriyyəti metro stansiyalarında və vaqonlarda maskanı tələb olunan qaydada taxmırlar. Məsafə saxlamaq da yada düşmür. Eyni mənzərələrlə hər gün alış-veriş mərkəzlərində də qarşılaşırıq. Bir sözlə, maska taxmağın, məsafə saxlamağın vacib olduğu qapalı məkanlarda qaydalara əməl etməyənlərin sayı əməl edənlərdən qat-qat çoxdur.

Əlbəttə, qızmar yay günlərində maska taxmaq çətindir. Ancaq hər gün yüksələn statistikaya laqeyd yanaşmağın acı nəticələri də hər kəsə məlumdur. Sadə qaydalara etinasız münasibətin böyük bəlalara yol açdığını bilirik. Digər tərəfdən, nəzərə almalıyıq ki, ətrafımızda risk altında olan, yaşlı, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlar var. Qaydalara laqeyd yanaşmaqla onların yoluxma riskini yüksəltmiş oluruq.

Hazırda bütün dünyada insanların sağlamlığını təhdid edən virusa qarşı mübarizənin yolları axtarılır. Mütəxəssislər araşdırmaları davam etdirirlər. Bu qlobal bəlanın qurbanı olmamaq üçün gigiyenik qaydalara riayət etmək, maska taxmaq, məsafə saxlamaq hələ də əhəmiyyətli məsələ kimi diqqət mərkəzindədir. Digər vasitə isə vaksinasiyadır ki, əksər ölkələrdə bu proses də həyata keçirilməkdədir.

### Vaksin vurulan ölkələrin siyahısında Çin birincidir

Dünya üzrə koronavirusa qarşı vurulan peyvəndlərin ümumi həcminin 4 milyard 430 milyon dozanı keçdiyi bildirilib. "Ourworldindata.org" bu barədə məlumat verib. Bildirilib ki, ən çox vaksin vurulan ölkələrin siyahısında böyük üstünlüklə birinciliyini davam etdirən Çindir. Bu ölkədə istifadə olunan vaksinlərin həcmi artıq 1 milyard 770 milyon dozaya çatıb.

Məlumata görə, Çini 506 milyon 810 min ilə Hindistan, 350 milyon 630 min ilə ABŞ, 151 milyon 710 min ilə Braziliya, 99 milyon 650 min ilə Yaponiya, 94 milyon 680 min ilə Almaniya, 86 milyon 210 min ilə İngiltərə, 76 milyon 470 min ilə Fransa, 76 milyon 64 min ilə Türkiyə, 73 milyon 150 min ilə İndoneziya, 71 milyon 650 min ilə Meksika, 71 milyon 420 min ilə İtaliya, 65 milyon 890 min ilə Rusiya və 58 milyon 540 min ilə İspaniya izləyir.

Azərbaycnda da vaksinasiya prosesi uğurla həyata keçirilir. Ölkədə COVID-19 əleyhinə peyvənd olunanların ümumi sayı 5 milyonu ötüb.

Artıq ölkəmizdə istifadəsinə icazə verilən vaksinlərə qarşı əks-göstərişləri olan şəxslərə "Əks-göstəriş sertifikat"ının verilməsinə başlanılıb. "Əks-göstəriş sertifikat"ı almaq üçün ərazi üzrə poliklinikalara müraciət edilməlidir. Poliklinika həmin şəxslərin məlumatlarını Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi komissiyaya təqdim edəcək. Komissiyanın rəyi əsasında vətəndaşa "Əks-göstəriş sertifikat"ı veriləcək.

Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə yaydığı məlumatda qeyd olunmuşdur: "Əks-göstərişləri olmayan vətəndaşların nəzərinə çatdırmaq istəyirik ki, dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə olunmuş nəticələrin təhlili bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli növlərindən qorunmağın ən effektiv yolu vaksinasiyadır. Vaksinasiya ilə yanaşı, fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalara da riayət olunmalıdır".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qarabağ zəfəri iqtisadi yüksəlişə zəmin yaradıb

## Prezident İlham Əliyevin postmüharibə dövrü üçün müəyyənləşdirdiyi layihələr uğurla reallaşmaqdadır

*Əvvəli 1-ci səh.*

Sosial-iqtisadi inkişafa dair hazırlanan prioritetlər özündə beş istiqaməti cəmləşdirir - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi...

Qarşıdakı 10 illik müddəti əhatə edən bu vacib iqtisadi sənəd eyni zamanda postmüharibə dövrünün reallıqlarını özündə əks etdirir.

### Regionun inkişafı üçün böyük imkanlar mövcuddur

44 günlük Vətən müharibəsindən 9 ay ötür. Bütün diqqətlər artıq gələcəyə yönəlib. Çünki postmüharibə dövrü əməkdaşlıq, kommunikasiyaların açılması, nəqliyyat dəhlizlərinin yaradılması üçün nadir imkanlar yaradıb.

Prezident İlham Əliyev bütün çıxışlarında bəyan edir ki, regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin reallaşmasına real zəmin yarada bilər. Bu gün isə, həqiqətən də, regionun gələcək inkişafı üçün böyük imkanlar mövcuddur. Bu imkanların reallığa çevrilməsi üçün ilk növbədə uzunmüddətli sülhün təmin edilməsi vacib şərtlərdən biridir. Lakin məğlub Ermənistanın son dövrlərdəki davranışı onu deməyə əsas verir ki, bu ölkə sülh sazişi imzalamamaq üçün əvvəlki, dövrlərdə olduğu kimi, müxtəlif oyunlara əl atır. Görünən odur ki, Ermənistan çox yaxın keçmişdə baş verənlərdən nəticə çıxarmaq istəmir. İşğal siyasəti yeritməsinə baxmayaraq, Ermənistana indiyədək humanist yanaşma nümayiş etdirən Azərbaycan münasibətlərin normallaşması üçün səylər göstərməkdə davam etsə də, bu ölkə vəziyyəti gərginləşdirməkdə israrlıdır. Bölgədəki sülhə hər zaman təhdid olan Ermənistan, həmişə olduğu kimi, yenə də boynuna götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınaraq ancaq təxribatlar törətməklə məşğuldur.

Son günlər ərzində Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də işğaldan azad olunmuş ərazilərimizdə ardıcıl təxribatlara əl atması qonşu ölkənin vəziyyəti qəsdən gərginləşdirmək istəyinin sübuta ehtiyacı olmayan dəlilidir. Rəsmi Ermənistan Azərbaycanın sülh sazişinin bağlanılması çağırışına reaksiya vermir.

Buna baxmayaraq, hazırda Ermənistanın da siyasi gündəliyini böyük dərəcədə Azərbaycan formalaşdırır. Prezidentin də söylədiyi kimi Ermənistan bizim gündəliyimizin heç 0,1 faizini də formalaşdıra bilmədiyi təqdirdə Azərbaycan hazırda məğlub ölkənin siyasi gündəliyini formalaşdırır. Bu gün Azərbaycan siyasi leksikona "Zəngəzur dəhlizi" sözünü daxil edib. Nəinki regionun, dünyanın aparıcı kütləvi informasiya vasitələri Zəngəzur dəhlizi haqqında materiallar yazırlar.

Prezident İlham Əliyev bütün çıxışlarında, müsahibələrində qeyd edir ki, əgər Ermənistan sülh istəyirsə, müqavilə imzalamalıdır. Bundan sonra danışıqlar başlaya bilər.

Əgər məğlub ölkə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb sülh müqaviləsi imzalayarsa, sərhədlərin delimitasiyası həll oluna bilər. Bununla da Avropa İttifaqının, Türkiyə və Rusiyanın gündəliyi ilə vəhdət təşkil edən məsələ də həllini tapa bilər.

Amma Ermənistan havadarlarına arxalanaraq yenə də özü üçün qorxulu oyunlar oynamaqda davam edir. Məğlub ölkə unudur ki, İlham Əliyevin dəmir yumruğu istənilən zaman onun başına zərbə endirə bilər. Azərbaycan Prezidentinin söylədiyi kimi: "Ermənistan bununla hesablaşmalıdır, yeni reallıqları qəbul etməlidir - istəsə də, istəməsə də. Heç vaxt unutmamalıdır ki, dəmir yumruq yerindədir".

Mövcud vəziyyəti qiymətləndirən İlham Əliyev deyir ki, artıq regionun gələcək inkişafı üçün nadir imkanlar yaranıb. Nikbinliyə səbəb olan digər amil odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur.

Postmüharibə dövrü, doğrudan da, yeni imkanlar açır. Əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox geniş imkanlar yaradır. Əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistanın maraqlarına cavab vermir. Digər qonşu ölkələrin də maraqlarına cavab verən bu proseslə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyası əsasında Azərbaycan öz gələcək yüksəlişinin gündəliyini qəbul edib və indi bütün proseslər bu gündəlik əsasında davam edir. Prezident də xüsusi olaraq qeyd edir ki, Azərbaycan həm müharibə, həm də postmüharibə dövründə istədiyinə nail olub.

Onu da qeyd edək ki, İlham Əliyevin həm müharibədən əvvəl, həm müharibə zamanı, həm də müharibədən sonra gələcək addımlarla bağlı çox dəqiq təsəvvürü var. Prezident bəyan edir ki, bütün sahələrin yüksəlişi üçün konseptual yanaşma mövcuddurr. Artıq qısamüddətli, ortamüddətli, uzunmüddətli hədəflər müəyyən olunub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasına 1101 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1101 yoluxma faktı qeydə alınıb, 311 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 352 min 926 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 335 min 336 nəfər müalicə olunaraq sağalıb, 5 min 72 nəfər vəfat edib. Aktiv xəstə sayı 12 min 518 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 min 947, bu günə qədər isə ümumilikdə 4 milyon 123 min 715 test icra olunub.




# Bu gün Azərbaycanda COVID-19 əleyhinə peyvənd vurduranların sayı açıqlanıb

Avqustun 9-da Azərbaycanda 511 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 271, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 240 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 5 milyon 418 min 754, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 160 min 755, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 257 min 999 nəfər təşkil edir.



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Daha 521 şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən son bir həftədə daha 521 şəxsə özünüməşğulluq proqramı çərçivəsində mal və materiallar formasında aktivlər təqdim edilib.



Verilmiş aktivlər hesabına onlar kiçik müəssisə və təsərrüfatlarını yaradıblar. Həmin şəxslərin əksəriyyəti şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, o cümlədən Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsinin qaziləridir.

Proqrama cəlb olunan şəxslər üçün ilk mərhələdə təlimlər təşkil olunub. Təlimləri uğurla başa vuran şəxslər kiçik təsərrüfatlarını qurmaq üçün qısa müddətdə lazımi avadanlıqlarla təmin olunublar.

Proqram iştirakçılarının təlimlərə cəlb edilməsi və seçdikləri iqtisadi fəaliyyət növləri üzrə biznes-planlarına uyğun aktivlərlə təminatı prosesi davam edir.

## Qaxın təsərrüfatlarında 4900 hektarda yay şumu çıxarılıb

Taxıl yığımı başa çatdıqdan sonra Qax rayonunun təsərrüfatlarında payızlıq səpini üçün yay şumunun çıxarılmasına başlanılıb. İndiyədək təsərrüfatlarda 4900 hektaradək sahədə yay şumu qaldırılıb.

Bu barədə AZƏRTAC-a Qax Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib. Qurumdan bildirilib ki, cari ildə rayonda gələn ilin məhsulu üçün 13 min 500 hektaradək sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır.

Rayonda taxıl biçini başa çatmış ərazilərdə təkrar qarğıdalı əkini isə artıq yekunlaşıb. Torpaq mülkiyyətçiləri bu il 801 hektar sahədə dən və yaşıl yem üçün təkrar qarğıdalı əkiblər.

Qeyd edək ki, bu il təkrar əkinlərə görə dövlət tərəfindən fermerlərə hər hektara 86 manat birdəfəlik vəsait ödəniləcək.

## «Azəri-Çıraq-Günəşli» hələ uzun illər Azərbaycana gəlir gətirəcək

Əvvəli 1-ci səh.

Bu faktların özü də göstərir ki, AÇG Azərbaycan iqtisadiyyatının dayaq sütunlarından biri olaraq qalır.

Hazırda yataqda 8 platforma fəaliyyət göstərir. Bunlardan 6-sı hasilat, 2-si isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğusudur. AÇG layihəsinin operatoru olan bp şirkətinin məlumatına görə, ilin birinci yarısında bu yataqlar blokundan ümumilikdə təxminən 85 milyon barel, yəni 11 milyon ton neft hasil edilib. Gündə orta hesabla "Çıraq"dan 30 min, "Mərkəzi Azəri"dən 111 min, "Qərbi Azəri"dən 118 min, "Şərqi Azəri"dən 78 min, "Dərinsulu Günəşli"dən 88 min və "Qərbi Çıraq"dan 43 min barel neft alınıb. Beləliklə, AÇG-nin gündəlik orta hasilatı 468 min barel təşkil edib.

"Azəri Mərkəzi Şərqi" AÇG-nin 9-cu platforması olacaq. Məlum olduğu kimi, 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalanmışdır. Saziş 2050-ci ilin əvvəlinədək davam edəcək. Bununla bağlı "Azəri Mərkəzi Şərqi" layihəsi həyata keçirilir. Yeni platforma da bu layihə çərçivəsində tikilir.

Müqaviləyə əsasən, "Azəri Mərkəzi Şərqi" layihəsi üzrə quruda və dənizdə bir sıra tikinti-quraşdırma işləri həyata keçirilir. Koronavirus pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, digər neft-qaz layihələrində olduğu kimi, burada da də işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz aparılır.

Adətən, yeni platformalardan hasilatı qəbul etmək üçün Səngəçal terminalında müəyyən tikinti-quraşdırma işləri görülür. Bu baxımdan "Azəri Mərkəzi Şərqi" də istisna təşkil etmir. Belə ki, terminalda yerləşəcək yeni nəzarət otağının layihələndirilməsi tamamlanıb və planlaşdırılmış modifikasiya işlərinə bu ilin dördüncü rübündə başlanacaq.



Ümumilikdə 2023-cü ildə "Azəri Mərkəzi Şərqi"dən ilk hasilatı əldə etmək üçün həyata keçirilən mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri qrafikə uyğun davam edir.

Qeyd edək ki, Azərbaycanın qaz potensialının da önəmli hissəsi AÇG yataqları hesabına formalaşır. Buradan çıxarılan səmt qazının bir hissəsi layların təzyiqini saxlamaq üçün yenidən kollektora vurulur. Mavi yanacağın xeyli hissəsi isə Azərbaycanın daxili istifadəsi üçün Səngəçal terminalından SOCAR-a məxsus kəmərlə "Azəriqaz" şəbəkəsinə ötürülür.

AÇG layihəsində bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGC Videş Limited (2,31 faiz) şirkətləri tərəfdaşlıq edirlər. AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli"nin tammiqyaslı işlənməsi müqaviləsi imzalanarkən tərəfdaşlar bu yataqların təxmini ehtiyatlarının 511 milyon ton olduğunu bildirmişdilər. İndi mütəxəssislər burada sərvətin daha çox - ən azı 1 milyard ton olduğu fikrini söyləyirlər. Deməli, AÇG hələ uzun illər neft və qaz verəcək, ölkəmizə yenə də rifah, xeyir-bərəkət gətirəcək.

***Flora SADIQLI, "Azərbaycan"***

## Kəlbəcər yaylaqlarında sonuncu bal süzümünə başlanılıb

Kəlbəcər yaylaqlarına ilk dəfə köçürülmüş arıçılıq təsərrüfatlarında sonuncu bal süzümünə başlanılıb. Kənd Təsərrüfatı Nazirliyinin həyata keçirdiyi pilot layihə çərçivəsində Kəlbəcər yaylaqlarına iyunun 7-də köçürülmüş arıçılıq təsərrüfatları artıq ikinci bal süzümünü həyata keçirirlər.

AZƏRTAC xəbər verir ki, arıçılar yaylaq dövrünün çox məhsuldar keçdiyini deyirlər. Onlar hər pətəkdən orta hesabla 30 kiloqram məhsul götürməyi hədəfləsələr də, məhsuldarlıq gözləntilərindən yüksək olub.

Kəlbəcərə köçürülmüş arı təsərrüfatlarından birinin sahibi Vahid Məmmədov deyir ki, 28 ildən sonra yenidən bu yerlərə qayıdıb: "Mən 50 pətək gətirmişəm. Bal süzümünü yekunlaşdırmaq üzrəyik. Pətək başına gözlədiyimizdən də yüksək məhsul əldə etmişik. Hər pətəkdən 45-50 kiloqram bal süzdük. Kəlbəcərin flora və faunası çox zəngindir. Yaylaqlarımızın bitki örtüyü, həmçinin meşə örtüyü çox zəngindir. Artıq mövsüm bitmək üzrədir. Olduğumuz yerdə bal mövsümü yekunlaşıb. Orta məhsuldarlıq pətək başına 30 kiloqram nəzərdə tutmuşduq, amma çox şükür, bizim 3-4 mərtəbəli pətəklərimizdə yetərincə bal oldu".

Bal süzümü prosesi bir neçə mərhələni əhatə edir. Pətəklərdə yalnız arının növbəti mövsümədək qidalanmasına bəs edəcək miqdarda bal saxlanılır. Pətəklərdəki çərçivələrdən şan çıxarılaraq xüsusi qablara yığılır. Daha sonra yaylaq şəraitində qurulmuş xüsusi otaqlarda bal süzümü həyata keçirilir. Süzülmüş bal əvvəlcə iri çəlləklərə yığılır, daha sonra bankalara tökülərək qablaşdırılır.



Bu il Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə Kəlbəcər yaylaqlarına 3537 arı ailəsi köçürülüb. Öz təsərrüfatlarını Kəlbəcər yaylaqlarına köçürməyə razılıq vermiş təsərrüfatların əməkdaşlarına ANAMA-nın Göygöl Regional Təlim Mərkəzində müvafiq təlimlər keçirilib, onlara dislokasiya bölgəsində davranış qaydaları izah edilib. İlk arıçılıq təsərrüfatları yaylaqlara iyunun 7-də Daxili İşlər Nazirliyi ilə əməkdaşlıq çərçivəsində, birbaşa yerli bölmələrin iştirakı ilə köçürülüb. Bu təsərrüfatlarda artıq ikinci bal süzümü davam edir.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Vüqar Hüseynov söhbət zamanı bildirdi ki, Kəlbəcər yaylaqlarında sonuncu bal süzümü mövsümü başlayıb. Yaylaqlarda bal süzümü yekunlaşmaq üzrədir. "Kənd Təsərrüfatı Nazirliyi pilot layihəni həyata keçirən zaman arıçılıq təsərrüfatlarının yaylaqlara köçürülməsindən bal süzümünə qədər bütün mərhələlərdə monitorinq keçirib. Nazirliyin heyvandarlığın təşkili və monitorinqi şöbəsi, həmçinin digər şöbələr monitorinq prosesinə cəlb olunublar. Monitorinqin nəticələri bizi sevindirir. Pilot layihə həyata keçirilən zaman qarşımızda nəzəri hədəflər vardı. Bu gün bal süzümü həyata keçirilən təsərrüfatlarda aparılan monitorinqlər göstərir ki, məhsuldarlıq gözləntilərin çox üzərindədir. Bu, həm çəki, həm də keyfiyyət baxımından belədir. Bal süzümü prosesinin tam başa çatması ilə yaylaqlarda arıçılığın ən əsas dövrünün başa çatdığını elan etmək olar. Çünki artıq çəmənlərdə nektar kütləsi azalıb, arıların işləməsi üçün kifayət qədər nektar kütləsi yoxdur", - deyə nazirlik rəsmisi vurğulayıb.

Qeyd edək ki, bu il Kənd Təsərrüfatı Nazirliyinin pilot layihəsi çərçivəsində Kəlbəcər yaylaqları ilə yanaşı, Laçın yaylaqlarına da arıçılıq təsərrüfatları köçürülüb. Laçının Qorçu, Oğuldərə və digər kəndlərinə, ümumilikdə, 531 arı ailəsinin köçürülməsi təmin edilib. Laçın yaylaqlarında bal süzümünə avqust ayının ikinci yarısında başlamaq nəzərdə tutulur.

## İyulda DGK büdcəyə 385,7 milyon manatdan çox vəsait köçürüb

İyulda Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə daxilolmalar 385 milyon 796 min manat olub.

Komitədən AZƏRTAC-a bildirilib ki, keçən ay gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 99 milyon 471 min manat, əlavə dəyər vergisi üzrə 267 milyon 642 min manat, aksizlər üzrə 14 milyon 909 min manat, yol vergisi üzrə isə 3 milyon 773 min manat təşkil edib.

## İsmayıllıda üzümçü fermerlər üçün tarla seminarı keçirilib

İsmayıllı rayonunda üzümçülük fermer təsərrüfatları üçün "Üzümçülükdə yay mövsümündə aqrotexniki, aqrokimyəvi və bitki mühafizə tədbirləri yüksək məhsuldarlığın və keyfiyyətin əsasıdır" mövzusunda tarla seminarı keçirilib.

Kənd Təsərrüfatı Nazirliyi, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzi (DAİM) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə keçirilən təlimin əsas məqsədi üzümçülükdə aqrotexnoloji tədbirlərin həyata keçirilməsi qaydalarını fermerlərin diqqətinə çatdırmaqdır.

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri üzümlüklərdə bioloji məhsuldarlığın təyini və yığım üçün lazımi tədbirlərin görülməsi, boz çürümə, oidium, antraknoz, salxım yarpaqbükəni, tor gənəciyi, mildiu və digər xəstəlik və zərərvericilərə qarşı preventiv əməliyyatların aparılması, giləələri tam iriliyə çatan və 0,5-1% şəkər toplamış texniki üzüm sortlarının qeyri-standart salxımlarının seyrəldilərək dərilməsi, ən tez yetişən üzüm sortlarının (Kardinal, Prima, Viktoriya, Blackmagic, ağ kişmişi, attika və s.) yığım üçün yoxlanılması, zoğların uclarının vurulması, biclərin qoparılması, məhsulun ağırlığından sallanan zoğların bağlanılması, salxımların ətrafındakı yarpaqların qismən qoparılması, dəmyə şəraitində becərilən üzümlüklərdə 10-12 sm dərinlikdə kultivasiya aparılaraq kapilyarın pozulması nəticəsində torpaqda nəmliyin qalmasına şərait yaradılması, sortlar üzrə üzüm yığımına 15-20 gün qalmış aqrotexniki qulluqların dayandırılması, suvarma, dərmanlama işlərinin başa çatdırılması kimi məsələlər fermerlərin diqqətinə çatdırılıb.

Təlim zamanı tarla refraktometri, xüsusi qayçı və bıçaqlar, ucvurma bağ qayçısı, bağlama üçün ip, "tənəkarası becərən hidravlik frez", mövsümə uyğun olaraq üzümün aqrotexnikası, aqrokimya və inteqrir mübarizə texnologiyalarının əks olunduğu çap materiallarından istifadə edilib və bəzi əməliyyatlar praktiki olaraq həyata keçirilib.



Qeyd edək ki, təlim Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyələşdirdiyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Texniki Peşə Təhsili və Təlimi" regional proqramına əsasən həyata keçirilir və Salyan, Şamaxı və İsmayıllı DAİM-lərinin üzümçülük sahəsində potensialının inkişaf etdirilməsi məqsədi daşıyır.



## Aqrar innovasiyalar məhsuldarlığı artırmağa xidmət edir

### Ölkəmizdə bu cür innovasiyalar ardıcıllıqla tətbiq olunur

Əvvəli 1-ci səh.

FAO bu il keçirdiyi konfransda da aqrar-ərzaq sistemlərinin tətbiqinin qlobal aclıq problemlərinin həllində oynaya biləcəyi vacib rola xüsusi diqqət ayırmışdır. Bu strategiya aqrar sistemlərin yenilənməsinə, kənd təsərrüfatına investisiyaların artırılmasına və əhalinin nisbətən imkansız təbəqələrinin hüquqlarının müdafiəsinin güclənməsinə hesablanmışdır.

Reallıqları nəzərdən keçirdikdə aydın görünür ki, bütünlükdə aqrar sektorun qlobal inkişafı ilə bağlı faktlar o qədər də ürəkaçan deyil. Əgər pandemiyaya qədər dünyada 690 milyon insan aclıqdan əziyyət çəkirdisə, bu gün həmin rəqəm 822 milyona çatmışdır! Dünyada kifayət qədər ərzaq məhsullarının istehsal olunmasına baxmayaraq, yenə də yüz milyonlarla insanın əli zəruri qidalara çatmır. Demək olar ki, əksər ölkələrdə aclıqdan və yoxsulluqdan əziyyət çəkən insanlar var. Halbuki ərzaq məhsullarının 12 faizi itkilərə məruz qalır, 17 faizi isə tarladan bazara gedən yolda xarab olur. Yalnız bu iki rəqəmin sıfırlanması yüz milyonlarla insanın qida məhsullarına olan tələbatını ödəməyə imkan verər. Müasir aqrar sistemlərə həmçinin iqlim dəyişiklikləri, su resurslarının tükənməsi, transsərhəd ziyanvericilərinin yayılması, təbii fəlakətlər, üzücü müharibə və münaqişələrin artması da mənfi təsir edir. Beləliklə, III minilliyin ən vacib məsələsi əhalinin ərzaq məhsullarına artan tələblərini ödəməklə yanaşı, aqrar sektorun ətraf mühitə ziyanlı təsirlərini minimallaşdırmaqdır.

Həmin təsirlərsə az deyil. Məsələn, BMT-nin meqatrendlər barəsində yeni məruzəsində göstərilir ki, 2020-2050-ci illər arasında şəhərlərdə yaşayan insanların sayı 53 faizdən 70 faizə qədər artacaq və bu ciddi fərq aqrar sektora təsirsiz ötüşməyəcək. Bundan əlavə, kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində parnik qazlarının atmosferə tullanması da aqrar-ərzaq sistemlərinə mənfi təsir göstərir. O da ehtimal edilir ki, kəndlər yerləşən ərazilərdə yoxsulluq və aclıq artacaq, bir sıra ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı su qıtlığı səbəbindən aşağı düşəcək. Sahil zolaqlarında isə suyun səviyyəsi, qasırğa və tufanların sayı artacaq, duzlu dəniz suları quruya hücum çəkərək torpaqları şoranlaşdıracaq, okeanlar isinəcək.

Bu yerdə onu da qeyd etmək yerinə düşərdi ki, dünyanın aqrar sistemi iqtisadiyyatın ən nəhəng seqmentidir və bu sahədə birbaşa və dolayısı 4 milyard insan çalışır. Yoxsulluqdan və aclıqdan əziyyət çəkənlərin də 80 faizi məhz kənd yerlərində yaşayır və aqrar sənaye kompleksində işləyirlər. Başqa bir fakt: aqrar sektorda planetin quru torpaqlarının 34 faizi istifadə edilir. Bu sektorda tullantıların həcmi isə Yer kürəsindəki bütün yük və minik avtomobillərinin, qatarların, sərnişin və yük təyyarələrinin atmosferə atdığı tullantıların çəkisinə bərabərdir. Bunlar da hələ hamısı deyil. Aqrar sektor dünyanın şirin su ehtiyatlarının 70 faizini sərf edir. Həmçinin meşələrin 80 faizinin qırılmasının səbəbkarı bu sektordur.

Mövcud ərzaq sistemləri biomüxtəlifliyin yoxsullaşmasına da birbaşa təsir edir. Biomüxtəliflik isə insan həyatı üçün ən vacib ekosistemləri özündə birləşdirir və ziyanvericilərlə mübarizədə, torpağın münbitliyinin qorunmasında, bitkilərin tozlanmasında, vəhşi təbiətdə canlıların yaşamasında başlıca rol oynayır. Lakin insanın aqrar sektorda göstərdiyi fəaliyyət biomüxtəlifliyə elə ciddi zərbə vurmuşdur ki, Yerin üst qatının 70 faizi dəyişmiş, milyona yaxın bitki və canlı yox olmaq təhlükəsi ilə qarşılaşmışdır. Meşələrin "keçəlləşməsi" isə təhlükəli həddə çatmışdır. Quru ərazilərin 31 faizini meşələr örtsə də, onların sahəsi azalmaqdadır. Təkcə son 30 il ərzində Yer kürəsində meşələrin sahəsi 178 milyon hektar azalmışdır. Bu səbəbdən 1990-cı ildən üzübəri 420 milyon hektara yaxın meşə "qeyb" olmuşdur. Bu xoşagəlməz hal son illər bir az səngisə də, hər il dünyada İtaliya kimi bir ölkənin ərazisi qədər meşə yox olur. Bu amil isə qlobal iqlim dəyişikliklərinin qarşısının alınmasında əngəl yaradır. Əgər meşələrin qırılmasını dayandırsaq və onları bərpa etmək mümkün olarsa, iqlim dəyişikliklərinin qarşını almaq bir qədər asanlaşar. Amma ildən-ilə aqrar sektora ayrılan torpaqların artması və digər səbəblər buna imkan vermir.

Məhz dünyanın aqrar sektorunda yaranan bu ağrılı vəziyyət tələb edir ki, aqrar-ərzaq sistemləri yubanmadan yeni strategiyaya adlasın, innovasiyalara və modernləşməyə açıq olsun. Bu baxımdan hazırda gündəlikdə duran ən vacib məsələ odur ki, 2030-cu ilədək yeni inklüziv və dayanıqlı aqrar sistemlər tətbiq edilsin və bunların nəticəsində kənd təsərrüfatı xarici təsirlərə duruş gətirərək sabit və ağrısız inkişaf etsin, ətraf mühit sarsıdıcı təsirlərə məruz qalmasın, qidanın tərkibi, ətraf mühitin vəziyyəti və insanların həyat səviyyəsi yaxşılaşsın. Kənd təsərrüfatında tətbiq edilən innovasiyalar, müasir dünya təcrübəsi, bilik və məlumatların davamlı emalı və analizi dünyanı aclıqdan və yoxsulluqdan xilas etmək gücünə qadir olsun.

FAO proqram fəaliyyətində 4 sektorda cəmləşən 20 prioritet istiqaməti əsas götürmüşdür. İstehsalın keyfiyyətinin yaxşılaşdırılması üçün xarici faktorlara müqavimət göstərə bilən yeni faydalı, dayanıqlı istehlak və istehsal modelləri yaradılmalıdır. Bu istiqamətdə aşağıdakı prioritetlət müəyyən edilmişdir: "yaşıl" innovasiyalar, "mavi" transformasiyalar, vahid sağlamlıq, kiçik istehsalçıların resurslara və rəqəmsal kənd təsərrüfatına bərabərhüquqlu əlçatanlıq. Qidanın keyfiyyətinin yaxşılaşdırılması, aclığın və yoxsulluğun aradan qaldırılması üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi vacibdir. Ətraf mühitin yaxşılaşdırılması dedikdə dəniz və torpaq ekosistemlərinin dayanıqlı istifadəsi nəzərdə tutulur. İqlim dəyişiklikləri ilə mübarizə və təbiətin mühafizəsi üçün xarici mühitin təsirlərinə davam gətirən dayanıqlı aqrar ərzaq sistemlərinin yaradılması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, FAO qarşıya qoyduğu məqsədlərə çatmaq üçün texnologiyaların, innovasiyaların, məlumatların və təhcizat vasitələrinin "sürətləndiriciləri"ni hərəkətə gətirməyə çalışacaq. Bu məqsədlə bütün dünya üzrə 1000 kənd seçərək onları rəqəmsallaşdıracaq. Yeniliklərin tətbiqi elektron ticarəti genişləndirəcək, fermerlərin bazarlara əlçatanlığını asanlaşdıracaq. Rəqəmsal kənd təsərrüfatı öz növbəsində şəhərlə kənd arasındakı fərqlərin azalmasına, ərzaq problemlərinin daha asan həllinə təkan verəcək. Şəhərlə kənd arasında iqtisadi əlaqələr rəqəmsal texnologiyalar üzərindən güclənəcək. Bu yeniliklər 42 müxtəlif gender qrupları arasında rəqəmsal fərqin də azalmasını təmin edəcək. Rəqəmsal texnologiyaların sürətlə yayılması kəndlərin inkişafına, rəqəmsallaşdırmaya, kənd rayonlarının dirçəlməsinə təkan verəcək. Modernləşmə kənd həyatını gənclər üçün daha maraqlı və rahat edəcək, kasıb təbəqələrin həyat səviyyəsinin yüksəlməsinə səbəb olacaq.

BMT-nin FAO təşkilatının aqrar sektorun yeni simasının formalaşmasında planlaşdırdığı innovasiyaları Azərbaycanın aqrar sektorunda aparılan tale yüklü islahatlarla müqayisə edəndə dövlətin nə qədər düşünülmüş və dərin aqrar siyasət yeritdiyi bir daha aydın görünür. Böyük aqroparkların yaradılması, logistika məsələlərinin həlli, anbarların və soyuducuların quraşdırılması, nəqliyyat və yol infrastrukturu məsələlərinin həlli ölkədə aqrar sektorun simasını büsbütün dəyişmişdir. Bu gün dövlətimizin işğal edilmiş ərazilərdə "ağıllı" kənd və şəhərlərin salınması, "ağıllı kənd təsərrüfatı"nın qurulması isə dövlətin aqrar islahatlara necə dərindən və sistemli yanaşmasının göstəricisidir.

Yeni suvarma sistemlərinin tətbiqi, kanalların çəkilişi, su anbarlarının tikilməsi, köhnə kanalların və arxların bərpası da bu gün Azərbaycanda diqqət mərkəzindədir. Eyni zamanda müasir texnologiyaların tətbiqi, yeni maşın və mexanizmlərin alınaraq və güzəştli şərtlərlə fermerlərə satılması Azərbaycanın dünyada gedən aqrar islahatların nəbzini tutmasını təsdiqləyir. Kənd təsərrüfatının sürətlə şaxələndirilməsi, ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi onu təsdiq edir ki, Azərbaycan müasir dünya təcrübəsinin yayılması və tətbiqi sahəsində bütün yeniliklərə açıqdır və əhalinin sosial rifahının yaxşılaşması, həyat səviyyəsinin yüksəlməsi üçün bütün zəruri addımları atır, islahatları aqrar sektorun bütün sahələri üzrə inkişaf etdirir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***




# XXXII Tokio Yay Olimpiya Oyunları

AZERBAIJAN

# Qarabağda başlayıb Yaponiyada davam edən qələbə

## Atletlərimiz Tokio Olimpiadasını 7 medalla başa vurdular

Tokioda olimpiya həyəcanı başa çatdı. Dünyanın 206 ölkəsindən 11 mindən çox idmançının qatıldığı turnirdə qalib olmaq hər bir atletin arzusu idi. Çünki planetin ən güclülərinin mübarizəsində ilk 3 pillədən birində yer almaq elə də asan qazanılan nəticə deyil. Bu baxımdan dördilliyin zirvə yarışına 44 idmançı ilə qatılan Azərbaycan komandasının turniri 3 gümüş və 4 bürünc medalla başa vurması uğur hesab olunmalıdır.









Doğrudur, istərdik ki, Azərbaycan idmançıları ən azından Rio Olimpiadasında qazanılan 18 medallıq nəticəni təkrar etsinlər. Lakin dünyanı ağuşuna alan koronavirus pandemiyası və Azərbaycanın böyük Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsi idman və idmançılarımızdan da yan keçmədi. Azərbaycanda bir sıra obyektlərin, o cümlədən idman zallarının fəaliyyətinə məhdudiyyətlərin qoyulması, sərhədlərin bağlı olması səbəbindən idmançılarımızın bir sıra müxtəlif səviyyəli beynəlxalq yarışlara qatıla bilməmələri və s. səbəblərdən atletlərimiz Olimpiadaya normal şəkildə hazırlaşa bilmədilər. Ona görə də ümidləri doğrulda bilməyən idmançılarımız qınaq obyekti olmamalıdırlar, əksinə, gələcək yarışlara ciddi hazırlaşmaları üçün həvəsləndirilməlidirlər.

Bir məsələni xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi. Heç kim deyə bilməz ki, əsas favorit göstərdiyin idmançı Olimpiadada mütləq medal qazanacaq. Çünki dünyanın ən nüfuzlu yarışında qarşıdakı rəqib də güclü idmançıdır və o da qələbə uğrunda mübarizə aparır. Bir də, idmanda təcrübə və hazırlıqla yanaşı, şans da, idmançının konkret məqamda psixoloji vəziyyəti də önəmli rol oynayır.

Medal sıralamamızda isə bəzilərinin dediyi kimi, vəziyyət heç də acınacaqlı deyil. Belə ki, olimpiya yığmamız Sidneydə 199 ölkə arasında 34-cü, Afinada 202 ölkə arasında 50-ci, Pekində 205 ölkə arasında 39-cu, Londonda 204 ölkə arasında 30-cu yeri tutmuşdusa, son Olimpiadada medalların sayına görə 31-ci olduq.

Karateçilərimizdən Rafael Ağayev (kumite, 75 kq) və İrina Zaretska (kumite, +61 kq) təkcə finalda uduzaraq gümüş medallara sahib olublar. Digər gümüş medalın sahibi isə sərbəst güləşçi Hacı Əliyevdir.

Gümüş medalçılarımızın döyüş yoluna bir daha nəzər salsaq görərik ki, Olimpiadada heç bir qələbə asan əldə edilmir. Kişilərin karatedə 75 kq çəki dərəcəsində mübarizəsində B qrupunda çıxış edən Rafael ilk döyüşündə Noa Biçlə (Almaniya) görüşdü. O, hesabda geri düşsə də, yekunda 2:1 hesabı ilə qələbə qazandı. Karateçimiz ardınca Çuneari Yahiro (Avstraliya) ilə dueldən də qalib ayrıldı - 5:0. O, üçüncü cəhdində Nurkanat Ajiqanovu (Qazaxıstan) sınağa çəkdi. Rəqibini 3:2 hesabı ilə məğlub edən Rafael son turun nəticəsindən asılı olmayaraq yarımfinala vəsiqə qazandı.

Təmsilçimiz qrupun son görüşündə yarışın digər favoriti Luici Busa (İtaliya) ilə döyüşdü. Rəqibinə 1:3 hesabı ilə uduzan dünya çempionumuz qrupu 6 xalla 2-ci pillədə başa vurdu. O, yarımfinalda digər qrupun birincisi macarıstanlı Qabor Harspataki ilə üz-üzə gəldi. Beşqat dünya və onbirqat Avropa çempionumuz rəqibini 7:0 hesabı ilə məğlub edərək finala yüksəldi.

Həlledici mərhələdə Rafael yenidən prinsipial rəqibi olan Busa ilə üz-üzə gəldi. İtaliyalı rəqib ikinci dueldən də qalib ayrıldığından Rafael gümüş medalla kifayətləndi.

Karatedə qadınların +61 kq çəki dərəcəsində B qrupunda çıxış edən Avropa və dünya çempionumuz İrina ilk olaraq Yaponiya təmsilçisi Ayumi Ueska ilə qarşılaşdı və qarşılaşmanı 4:1 hesabı ilə qalib başa vurdu. O, ikinci görüşündə Silvia Semeraroya (İtaliya) da gücünü göstərdi. Təmsilçimiz bu dəfə 3:2 hesabı ilə qalib gəldi. Lakin Zaretska 3-cü qarşılaşmasında Sofiya Berultsevaya (Qazaxıstan) 4:5 hesabı ilə uduzdu. Əvəzində son döyüşündə Meltem Hocaoğluya qalib gəldi. Türkiyə idmançısını 4:0 hesabı ilə məğlub edən İrina qrupu 6 xalla birinci pillədə başa vuraraq adını yarımfinala yazdırdı.

Finala gedən yolda xanım karateçimiz digər qrupun ikincisi olan çinli Li Qonqla üz-üzə gəldi. Təmsilçimiz bu dəfə də qələbə qazanmaqda çətinlik çəkmədi - 7:2.

Həlledici mərhələdə Zaretska misirli Feryal Abdelazizlə qarşılaşdı. O, uğurlu seriyanı davam etdirə bilmədi və 0:2 hesabı ilə uduzaraq gümüş medalla kifayətləndi.

Sərbəst güləşdə 65 kq çəki dərəcəsində yarışan Hacı Əliyev mübarizəyə 1/8 final mərhələsindən başlamışdı. İlk rəqibi seneqallı Adama Dyatta oldu. Güləşçimiz rəqibini xalçaya çıxmağa peşman etdi: 4:0. Hacı 1/4 finalda Daulet Niyazbekovla (Qazaxıstan) qarşılaşdı və 9:1 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəldi. O, bu mərhələdə hindistanlı Bayranq Punişa ilə görüşdü və uğurlu seriyanı davam etdirdi. Pəhləvanımız 12:5 hesablı qələbə sayəsində finala vəsiqə qazandı.

Tokioda Azərbaycan millisinin heyətində həlledici görüşə yüksələn ilk idmançımız qızıl medal üçün yaponiyalı Takuto Otoquro ilə güləşdi. Təəssüf ki, görüş rəqibin 5:4 hesablı qələbəsi ilə yekunlaşdı. Nəticədə Hacı çıxışını gümüş medalla başa vurdu.

Yunan-Roma güləşçilərimizdən Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz Mariya Stadnik (50 kq) Olimpiadanı bürünc medallarla başa vurdular. Ölkəmizin aktivinə digər bürünc medalları cüdoçu İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Domingez (81 kq) yazdırdılar.

Beləliklə, komandamız 2-si karatedə və 1-i güləşdə 3 gümüş, 2-si güləş, 1-i cüdo və 1-i boksda, 4 bürünc medalla Vətənə döndü.

Sonda qeyd edək ki, Olimpiadada idmançılarımıza qarşı hakim səhvlərinin də şahidi olduq. Xüsusilə boks yarışlarında Cavid Çələbiyev Ermənistan təmsilçisi Ovanes Baçkova böyük üstünlüklə qalib gəldiyi halda, hakimlər heç bir səbəb göstərmədən əks tərəfi qalib elan etdilər. Bu, hakimlərin adına böyük fiasko idi. Təəssüf ki, bu yarışlarda idmançılarımızın qarşılaşdıqları yeganə ədalətsizlik deyildi. Atletlərimizlə bağlı mübahisəli məqamlarda verilən rəylər heç də həmişə obyektiv olmurdu.

Ümumiyyətlə, "Tokio-2020" bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki olimpiadalardan seçilirdi. Əsas səbəb də o idi ki, Yaponiya paytaxtında tarixən ikinci dəfə təşkil edilən Olimpiya Oyunları bütün dünyada tüğyan edən koronavirus pandemiyası səbəbindən bir il müddətinə təxirə salınmışdı. Təşkilatçıların birlikdə qəbul etdikləri qərara əsasən, əcnəbi tamaşaçıların yarışlara azarkeşlik etmək üçün Yaponiyaya gəlişi qadağan edilmişdi. Yarışları izləmək üçün Yaponiyaya gələn rəsmi nümayəndə heyətlərinin tərkibi də kəskin azaldılmışdı.

Bütün hallarda mövcud reallıqların fonunda Azərbaycan atletlərinin Tokioda əldə etdiyi nəticə qələbədir - keçən il Qarabağda başlayıb, bu il Yaponiyada davam edən qələbə!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Əlvida, Tokio! Salam, Paris!

Avqustun 8-də Bakı vaxtı ilə saat 15:00-da Yaponiyanın Tokio şəhərindəki Milli Olimpiya Stadionunda XXXII Yay Olimpiya Oyunlarının möhtəşəm bağlanış mərasimi keçirilib.




Əvvəlcə meydana Yaponiyanın dövlət bayrağı gətirilib. Yaponiyanın dövlət himninin müşayiəti ilə dövlət bayrağı qaldırılıb.

"Tokio-2020"də iştirak edən ölkələrin bayraqları meydana gətirildikdən sonra Olimpiya Oyunlarının maraqlı anlarının əks olunduğu videoçarx nümayiş etdirilib. Yarışların mükafatçılarının meydana gəlişi maraqlı anlarla yadda qalıb.

Tokio Milli Stadionunda başlanan atəşfəşanlıqdan yaranan işıq zərrələri yağış şəklində meydana yağaraq Olimpiya Oyunlarının əsas rəmzi sayılan beş halqanı əmələ gətirib. Yaponiyanın məşhur "Tokyo Ska Paradaise" orkestrinin ifasında səslənən əyləncəli musiqinin sədaları altında müasir rəqslər ifa edilib.

Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstanın dövlət bayrağı qaldırılıb və dövlət himni səsləndirilib.

Sonra marafon yarışının qalibləri mükafatlandırılıblar. Əvvəlcə qadınlar arasında marafon yarışının qalibi keniyalı Peres Jepcircir, ikinci yeri tutan onun həmyerlisi Brigio Kosqey və üçüncü yerin sahibi ABŞ idmançısı Molli Seydelə mükafatları Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastian Koe təqdim ediblər.

Sonra kişilər arasında marafon yarışının qaliblərinə mükafatlar təqdim olunub. Qızıl medala Keniya idmançısı Eliud Kipçoqe sahib olub. İkinci yeri niderlandlı Abdi Naqiay, üçüncü yeri isə Belçika idmançısı Bəşir Abdi tutub. Medalları mükafatçılara BOK-un vitse-prezidenti Anita DeFrantz və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastian Koe təqdim ediblər.

BOK-un Atletlər Komissiyasının yeni seçilmiş üzvlərinin təqdimatından sonra böyük yarışların ayrılmaz hissəsi olan könüllülərin bir qismi səhnəyə dəvət olunub və mükafatlandırılıblar.

Yaponiyanın ayrı-ayrı prefekturalarının nümayəndələri tərəfindən ifa edilən milli rəqslərin əks olunduğu videoçarx maraqla qarşılanıb. Yakuta və kimono geymiş iştirakçıların meydanda canlı ifa etdiyi "Bon Odori" milli rəqsinə Olimpiya Oyunlarının mükafatçıları da qoşulublar.

Tokionun qubernatoru Koike Yuriko və Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın iştirakı ilə BOK-un bayrağı endirilib.

Xanım Koike Yuriko Olimpiya bayrağını BOK-un prezidenti Tomas Baxa, o isə 2024-cü ildə növbəti Olimpiadaya evsahibliyi edəcək Paris şəhərinin meri Ann İdalqoya təqdim edib. Fransanın dövlət himni səsləndirilib. Fransa ilə qurulan birbaşa bağlantıda Paris sakinlərinin, idmançıların Olimpiada estafetini qarşılamağa hazır olduğu əksini tapıb.

Mərasimdə çıxış edən "Tokio-2020"nin təşkilat komitəsinin sədri xanım Seyko Haşimoto və BOK-un prezidenti Tomas Bax Olimpiadanın yüksək dostluq şəraitində keçdiyini, koronavirus pandemiyasına baxmayaraq, Tokionun yeni tarix yazdığını və yarışın uğurlu təşkil olunduğunu diqqətə çatdırıblar.

BOK prezidenti Tomas Bax "Tokio-2020" Olimpiya Oyunlarını bağlı elan edib.

Məlumatı AZƏRTAC yaymışdır.





# Onlar da Azərbaycanın fəxri və qürurudur

## Tokio Olimpiadasında başqa ölkələri təmsil edən azərbaycanlılar 2 gümüş və 1 bürünc medal qazandılar

Yaponiyanın paytaxtı Tokioda XXXII Yay Olimpiya Oyunları başa çatmışdır. Aktivində 3 gümüş və 4 bürünc olan Azərbaycan medalların sayına görə 33-cü mövqedə qərarlaşmışdır.

Qeyd edək ki, Olimpiya Oyunlarında azərbaycanlılar təkcə milli komandamızın tərkibində çıxış etməmişlər. Onlar Türkiyə, Ukrayna, Fransa, Böyük Britaniya, Monqolustan kimi ölkələrin də idman şərəfini qorumuşlar.

Bunların arasında ən tanınmışı dünya və Avropa çempionu yüngül atlet Ramil Quliyevdir. Azərbaycan yüngül atletika məktəbinin yetirməsi 2008-ci ildə Pekin Olimpiadasında ölkəmizi təmsil etmiş, 2016-cı ildə Rio-de-Janeyrodakı Yay Olimpiya Oyunlarında isə artıq Türkiyə yığmasının tərkibində finala vəsiqə qazanaraq 8-ci yeri tutmuşdu. 2017-ci ildə Ramil 200 metr məsafəyə qaçışda dünya çempionu olmuş, növbəti il isə Avropa çempionatında qızıl medala yiyələnmişdir. Tokioda həmyerlimiz yarımfinala vəsiqə qazanmış, lakin ilk səkkizliyə düşə bilməmişdir.

Cessika və Cenifer Qədirova bacıları 93 ildən sonra gimnastikada Böyük Britaniya üçün Olimpiya medalı əldə etmişlər. Britaniya komandası Tokio-2020-də debüt edən Qədirova bacıları sayəsində çoxnövçülükdə bürünc medal qazanmışdır. Bacılar çoxnövçülükdə fərdi finallara da vəsiqə əldə etmişlər. Nəticədə Cessika 10-cu, Cenifer isə 13-cü yeri tutub.

Qədirova bacıları 2004-cü il oktyabrın 3-dən Dublində anadan olmuşlar. 2001-ci ildə onların valideynləri Londona köçmüşdür. Hazırda idmançıların həm İrlandiya, həm də Böyük Britaniya vətəndaşlıqları var.

Pərviz Nəsibov yunan-Roma güləşi ustasıdır. Tokio Olimpiadasında Ukraynanın idman şərəfini qoruyan Pərviz 1998-ci ildə Ağstafa rayonunun Muğanlı kəndində anadan olmuşdur. 6 yaşında ikən o, ailəsi ilə birlikdə Nikolayev şəhərinə köçmüşdür. Bu ilin mayında Bolqarıstanın paytaxtı Sofiyada keçirilən yarışda Pərviz Nəsibov digər azərbaycanlı güləşçi Rəsul Çunayevə qalib gələrək Olimpiya Oyunlarına lisenziya qazanmışdır. Tokioda Pərviz yalnız finalda məğlub olaraq Olimpiadanın gümüş medalını əldə etmişdir.

Digər Azərbaycan əsilli cüdoçu iranlı Səid Mollayi Tokio 2020-də 81 kiloqram çəki dərəcəsində finalda yaponiyalı idmançı Takanori Naqaseyə məğlub olaraq gümüş medal qazanmışdır. Xoy şəhərində anadan olmuş Səid 2018-ci ildə Bakıda keçirilmiş dünya çempionatında İran millisinin heyətində qızıl medala layiq görülmüşdü.

Olimpiadada Rusiyanı təmsil edən azərbaycanlı boksçu Qabil Məmmədov 2019 və 2020-ci illərdə Rusiya çempionu olmuş, 2017-ci ildə Avropa çempionatının və 2019-cu ildə Minskdə II Avropa Oyunlarının gümüş medallarına layiq görülmüşdür. Tokio-2020-də Polşa və Mavriki boksçuları üzərində qələbə qazanan Qabil dörddəbir final görüşündə ABŞ boksçusu Keyşon Devisə uduzmuşdur.

2019-cu ildə Minskdə keçirilmiş II Avropa Oyunlarının gümüş mükafatçısı, əslən Bərdədən olan boksçu Murad Əliyev isə Olimpiya Oyunlarında Fransanı təmsil edirdi. O, 6 yaşında ikən ailəsi ilə birlikdə Avropaya köçmüşdür. Tokioda Böyük Britaniya təmsilçisinə qarşı dörddəbir final döyüşündə Murad hakim ədalətsizliyi ilə üzləşmiş və ona məğlubiyyət verilmişdi.

Beləliklə, digər ölkələri təmsil edən azərbaycanlı idmançılar XXXII Yay Olimpiya Oyunlarında 2 gümüş və 1 bürünc qazanmışlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Azercell" azad olunmuş ərazilərimizdə şəbəkəsini genişləndirir

## Artıq bu torpaqlarımızda yüksəkkeyfiyyətli mobil rabitənin təmin olunması məqsədilə şirkətin 60-dan çox stansiyası fəaliyyət göstərir

44 günlük Vətən müharibəsində Azərbaycanın böyük qələbəsi nəticəsində doğma torpaqlarımızın azad olunması ölkəmizin həyatında yeni bir mərhələyə təkan verdi. İşğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması və bərpası istiqamətində dövlət səviyyəli layihələrin təşkil olunması da bundan xəbər verir.

Şanlı ordumuzun, demək olar ki, ardınca bütün cəbhəboyu irəliləyən "Azercell" komandası Cəbrayıl rayonundan başlayaraq azad edilmiş tarixi torpaqlarımızda, eləcə də qədim Şuşa şəhərində 4G şəbəkəsini işə salmağa müvəffəq olub. "Azercell" işğaldan azad olunmuş ərazilərimizin sürətli inkişafına öz töhfəsini vermək məqsədilə zəruri platforma olacaq mobil telekom infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Belə ki, işğaldan azad olunmuş torpaqlarımızda qurulmuş "Azercell" şirkətinə məxsus 60-dan artıq radio baza stansiyası 2G/3G/4G standartlarını dəstəkləyir. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər artıq "Azercell" şəbəkəsi ilə əhatə olunub.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti "ağıllı şəhər" (Smart City) və "ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalayıb. "Azercell" şirkəti öz növbəsində bu istiqamətdə hər cür fəaliyyətə dəstək verməyə hazır olduğunu bildirir.

"Azercell"in əsas vəzifəsi və məqsədi işğaldan azad olunmuş ərazilərdə tam gücü ilə yeni nəsil şəbəkənin genişləndirilməsini sürətləndirmək və bu ərazilərə qayıdacaq əhalini mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməkdir.

*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün "Digər malların alınması" xərc maddəsi üzrə malların satın alınması məqsədilə

### *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs - İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 01.09.2021-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 09.09.2021-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 10.09.2021-ci il saat 16:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankı bankın əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşlarının tibbi sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 22 sentyabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılığın (lisenziyanın) və könüllü tibbi sığorta növü üzrə müvafiq qaydada təsdiq olunmuş qaydaların surəti;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 03 noyabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 21 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 13 sentyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı 300 (üç yüz) manatdır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2021-ci il tarixdən.
Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.
Qiymətləndirmə amilləri: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən Azərbaycan dilində tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs:
Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428).
Aynurə Salihova (İnsan resursları departamenti). Telefon: 493-11-22 (225).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binaları üçün split tipli kondisionerlərin alınması və quraşdırılması işlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 30 iyul 2021-ci il tarixli qərarına əsasən, "H AND M SUPPLY" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparata xidməti istifadə üçün hesablama texnikasının (kompüter, printer, surətçıxaran avadanlıqlar, yaddaş qurğuları, skayner, İP telefon) satın alınması üzrə

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 190 (bir yüz doxsan) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsi ilə tender üzrə tələb olunan ilkin sənədləri **30 avqust 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **07 sentyabr 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar Tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri **08 sentyabr 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyli küçəsi, 134 ünvanında yerləşən inzibati binada mebel təchizatı işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Açıq tenderdə iddiaçı qismində ixtisaslı işçi heyətinə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https//www.etender.gov.az/** vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını ("ASAN ödəniş" vasitəsilə) aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

**AZN hesabı**
**Emitent**
**Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Bankın kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**VÖEN: 1404365471**
**H/h: AZ53CTRE00000000000008498501**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142330**
**Tenderdə iştirak haqqı 200 manatdır.**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi ("ASAN ödəniş");*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *yüklülük barədə vergi orqanından arayış;*
- *iddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 1 (bir) il ərzində oxşar işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *məhkumluq barədə arayış;*
- *digər sənədlər (tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Mətnlər arasında fərq aşkar olunarsa, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tenderlə əlaqədar istənilən məlumatı almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs: Mehman Bayramov.
Ünvan: Bakı şəhəri, Nizami küçəsi 96E, Landmark I, 3-cü mərtəbə.
Telefon: (+99412)5058704 (əlavə 2304); Faks: (+99412)4920592.
e-mail: mehman.bayramov@tourism.gov.az

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 10 sentyabr 2021-ci il saat 12:00-a, tender təklifini və təklifin bank təminatını isə 20 sentyabr 2021-ci il saat 18:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təkliflərinin açılışı 21 sentyabr 2021-ci il saat 12:00-da dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron Portal vasitəsilə izləyə bilər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Göygöl Rayon İcra Hakimiyyətinin Göygöl şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2021-ci il üçün açıq tender elan edir

Göygöl şəhər Şəhidlər xiyabanında əsaslı təmir işlərinin aparılması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqavilənin vaxtında yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar Tender komissiyasına müraciət edə bilərlər.

Ünvan: Göygöl şəhəri, S.Hacıyev küçəsi, 42
Telefon: 022-205-23-69; (050) 681-61-50
Əlaqələndirici şəxs: Allahverdiyeva Fəridə Mayıl qızı

Maraqlananlar aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra Əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı - 450 manat. İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat: Göygöl Rayon İHB-nin Göygöl şəhər İƏD-si üzrə nümayəndəliyi**
**HESAB: AZ93CTRE00000000000002511232**
**VÖEN: 7600050571**
**BANK: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**Kod: 210005**
**VÖEN BANK: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında məlumat;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması barədə arayış;*
- *tender təkliflərinin təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri 31.08.2021-ci il saat 12:00-dək, tender təklifi və bank zəmanətini isə 08.09.2021-ci il saat 12:00-dək təqdim etməlidirlər.

Tender zərfləri 09.09.2021-ci il saat 12:00-da açılacaqdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi vəkil Aidə Tağıyevaya anası

**ZENFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4870
Sifariş 1425
Qiyməti 40 qəpik